## Dekabrın 15-nə qədər qəbul imtahanlarının cədvəli açıqlanacaq

Mələykə Abbaszadə hazırda bu istiqamətdə iş getdiyini qeyd edib



**İlin sonuna, dekabrın 15-nə qədər qəbul imtahanlarının cədvəlini hazırlayıb ictimaiyyətə təqdim edəcəyik.**

Bunu jurnalistlərə açıqlamasında Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Mələykə Abbaszadə deyib.

**Sədr hazırda bu istiqamətdə iş getdiyini qeyd edib:** "Müxtəlif tədbirlər, yaxud hava şəraiti də tərəfimizdən nəzərə alınacaq. Hazırda bunun üzərində iş gedir. Dediyimiz kimi, ilin sonuna doğru, dekabrın 15-nə qədər cədvəli Elm və Təhsil Nazirliyi ilə razılaşdırıb ictimaiyyətə təqdim edəcəyik".



## Gəncədə yeniyetmə qız 10-cu mərtəbədən yıxılaraq ölüb

**Gəncədə yeniyetmə binadan yıxılaraq ölüb.**

Hadisə şəhərin Şah İsmayıl Xətai prospektində yerləşən 12 mərtəbəli yaşayış binasında qeydə alınıb. 2007-ci il təvəllüdlü Şəbnəm Məmmədovanın binanın 10-cu mərtəbəsindən yıxıldığı bildirilir. Hadisənin hansı səbəbdən baş verdiyi məlum deyil.

❒ № 211 (5732), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 19 noyabr 2022-ci il (şənbə)



# Azərbaycanda məhkumlar videogörüş keçirə biləcək

**Prezident İlham Əliyev Cəzaların İcrası Məcəlləsinə edilən dəyişiklikləri təsdiq edib.**

Qanuna əsasən, Azərbaycanda məhkumlara videogörüşlər keçirmək hüququ verilib.

Qanun epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə görüşlərə məhdudiyyət qoyulduğu hallarda məhkumun xahişi ilə olduqda qısa müddətli görüşlərin telefon danışıqları və videogörüşlərlə əvəz edilməsini nəzərdə tutur.

Bu Məcəllə ilə müəyyən edilmiş qaydada telefonla danışmaq və ya videogörüş keçirmək məhkumun seçimi əsasında həyata keçiriləcək. Videogörüşün keçirilməsi digər məhkumlardan təcrid olunmuş şəraitdə xüsusi otaqda təşkil olunacaq.




## ABŞ Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşır

**ABŞ Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşır.**

Bunu ABŞ Dövlət Departamentinin nümayəndəsi Cameron Millard noyabrın 18-də Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovla keçirilən görüşdə deyib. Qonaq iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, Azərbaycan Vətən müharibəsində əldə etdiyi Zəfərdən sonra regionda yeni reallıq yaradıb və yeni təşəbbüslərlə çıxış edir.

(səh.2)

## Şərqdə, Asiyada siyasətimiz genişlənir

Azərbaycanın İsraildə səfirliyi, Fələstində isə təmsilçilik ofisi açılır



**Azərbaycanın İsraildə səfirliyi təsis ediləcək.**

Bununla bağlı məsələ "Azərbaycan Respublikasının İsrail Dövlətində (Təl-Əviv şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsində əksini tapıb. Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib ki, İsrailin hər zaman beynəlxalq təşkilatlarda bizə dəstəyini görmüşük...

(səh.5)

# Vardanyan oyununun hədəfi ortaya çıxır

Rusiyaya mesaj verildi, Bakı "qaranlıq plana" imkan verməyəcək



**Prezident İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bir sıra məqamlara diqqət çəkib.**

Dövlət başçısı bir müddət öncə separatçılara dəstək üçün Xankəndinə gələn, daha doğrusu, göndərilən milyarder Ruben Vardanyan barəsində də danışıb. Ölkə rəhbəri vurğulayıb ki, Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox: "O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb.

(səh.4)

# Tərəzi səhv işləyir, qiymət də baha...

Yarmarkaları nazirlik yox, icra hakimiyyətləri təşkil etməlidir



**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 19 -20 noyabr tarixlərində "Kənddən Şəhərə" həftəsonu yarmarkaları təşkil olunacaq.**

Nazirlikdən "Şərq" ə verilən məlumata görə, Bakı və Abşeron ərazisində keçiriləcək yarmarkaların təşkilində əsas məqsəd fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini yerli, təbii və mövsümi kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

(səh.6)



## Paşinyan istintaq komitəsinə çağırılıb

Baş nazir 44 günlük müharibə ilə bağlı dindirilib

**Ermənistan Baş naziri Nikol Paşinyan İstintaq komitəsi tərəfindən şahid qismində dindirilib.**

Bu barədə "Azadlıq radiosu"nun Ermənistan bürosu İstintaq komitəsinə istinadən məlumat yayıb. Məlumatda deyilir ki, İstintaq Komitəsinin Hərbi cinayətlərin istintaqı baş idarəsinin xüsusi əhəmiyyətli işlərin araşdırılması idarəsi bu ilin may ayının 4-dən etibarən, 44 günlük müharibə dövründə Ermənistanın yüksək vəzifəli şəxsləri tərəfindən, vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, törədildiyi ehtimal olunan cinayət faktı üzrə ilkin istintaq tədbirləri həyata keçirir.

(səh.2)

## 1 nəfər vəfat edib

40 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 40 yeni yoluxma faktı qeydə alınıb, 42 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 823 889 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 813 669 nəfər müalicə olunaraq sağalıb, 9 969 nəfər vəfat edib, aktiv xəstə sayı 251 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 571, hazırkı dövrədək isə 7 353 252 test aparılıb.*

## İran vətəndaşlarının Türkiyədə aldığı daşınmaz əmlak sayı azalıb



**2022-ci ilin oktyabr ayında İran vətəndaşları Türkiyədə 498 daşınmaz əmlak alıblar ki, bu da 2021-ci ilin oktyabr ayı ilə müqayisədə 767 obyekt azdır.**

Trend-in xəbər verir ki, TurkicWorld bu barədə Türkiyənin Torpaq Kadastrı və Daşınmaz Əmlak Alqı-Satqısı üzrə Dövlət orqanına istinadən məlumat verir.

Məlumata görə,2022-ci ilin yanvar-oktyabr aylarında İran vətəndaşları Türkiyədə 7 min 38 daşınmaz əmlak satın alıblar ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 3 min 18 obyekt azdır.

(səh.2)



## Deputat xalqın dərdini anlatdı

Son illər qiymətlər ən azı beş dəfə bahalaşıb

(səh.4)



## 5 il əmək stajı tələb olunur

"Birinci qrup əlillərin pensiya almasında problem var"

(səh.3)



# Ən yüksək göstəriciyə nail olmuşuq

## Prezident İlham Əliyev: “Rusiyadan Azərbaycana turist axını artır, reyslərin sayı da artacaq”

**“Bu ilin əvvəlindən Prezident Vladimir Vladimiroviç Putin ilə biz münasibətlərimizə yaxşı ton, yeni dinamika verdik və il ərzində dəfələrlə görüşdük”. Bunu Prezident İlham Əliyev Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə geniş tərkibdə görüşü zamanı bildirib. Dövlət başçısı qeyd edib ki, Putinlə ikitərəfli gündəliyə aid mühüm məsələlər barədə telefonla danışmaq imkanı olub:**

”Beləliklə, necə deyərlər, prezidentlər münasibətlərimizin bütün spektrini müəyyən edir. Əlbəttə, bütün müvafiq strukturlar da bu istiqamətdə fəaliyyət göstərir. Biz çox şadıq ki, qarşılıqlı ticarətin həcmi pandemiyadan əvvəlki səviyyəyə çatır və əminəm ki, bu dinamizm qorunub saxlanacaq. Ona görə ki, bu gün, o cümlədən sizin səfəriniz çərçivəsində müzakirələr qarşılıqlı ticarət potensialını artırmağa şərait yaradacaq”.

**Prezident İlham Əliyev deyib ki, bəzi statistik məlumatlara baxıb:** ”Sevindim ki, aviareyslərin sayı sürətlə artır. Həftədə 130-dan çox reys var, yəni biz praktiki olaraq ən yüksək göstəriciyə nail olmuşuq və Rusiyadan turist axını da artır. Bu il təqribən 80 faiz artım olub. Əlbəttə, pandemiya ilə əlaqədar bu göstərici azalmışdı. Biz hələ pandemiyadan əvvəlki səviyyəyə çatmamışıq, lakin fikrimcə, çatacağıq. Ölkələrimiz arasında sıx dostluq əlaqələrini, bu il Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə Bəyannamə imzalanmasını və il ərzində münasibətlərimizin müttəfiqlik xarakterini dəfələrlə nümayiş etdirməyimizi, iqtisadi-ticari əməkdaşlığın gündəliyini xeyli genişləndirmək niyyətində olmağımızı nəzərə alaraq, düşünürəm ki, reyslərin sayı da artacaq”.

**“Biz Rusiya ilə yükdaşımaların həcmində də yaxşı dinamika görürük”**

**Dövlət başçısı qeyd edib ki, yükdaşımaların həcmində də yaxşı dinamika var:** ”Tranzit yüklərə gəldikdə isə mənim fikrimcə, burada rekord göstəricilərə nail oluruq. Təqribən 50-60 faiz artım var və artım perspektivi böyükdür. Həmçinin tranzit-logistika infrastrukturu məsələsində, ilk növbədə, ikitərəfli əsasda və əlbəttə, qonşu ölkələr də cəlb edilməklə qarşılıqlı əməkdaşlıq potensialını artıracağıq. Ona görə ki, Rusiya və Azərbaycan uzun illər boyu ölkələrimizdə nəqliyyat-logistika infrastrukturuna fəal surətdə sərmayə qoyublar. Nəqliyyat dəhlizlərinin, ilk növbədə, Şimal-Cənub dəhlizinin potensialının artırılması bu layihədə iştirak edən bütün ölkələrin maraqlarına uyğun olacaq, o cümlədən biznes üçün əlavə perspektivlər açacaq”.

**Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin deyib ki, nəqliyyat sahəsi çox mühüm, xüsusi sahədir:** ”Əminik ki, birgə infrastruktur-logistika layihələri bütün əməkdaşlıq kompleksinin genişləndirilməsi üçün yeni drayver olacaq.

”Burada Qərb marşrutunu - Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini ayrıca qeyd etmək istərdim. Biz 2030-cu ilə qədər bu dəhlizlə daşımaların həcmini artıraraq ildə 15 milyon tona çatdırmaq niyyətindəyik”.

**“Rusiyada Azərbaycandan olan 11 mindən çox tələbə təhsil alır”**

**Mixail Mişustin vurğulayıb ki, mədəni-humanitar əlaqələrə ənənəvi olaraq xüsusi əhəmiyyət veririk:** ”Diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik”. O qeyd edib ki, bu mühüm hadisəyə həsr edilmiş təntənəli silsilə tədbirlər keçirilib: ”Gələn il isə biz görkəmli sovet və Azərbaycan dövlət xadimi, Sizin atanız Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edəcəyik. Biz dünən də qeyd etdik ki, Bakıda bizim institutların - Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Rusiyada da Azərbaycandan olan on bir mindən çox tələbə təhsil alır. İnsanlar arasında birbaşa əlaqələrin bu cür inkişafı, zəngin tarix, mədəniyyət və ənənələrlə tanışlıq bizim qarşılıqlı münasibətlərimizi möhkəmləndirəcək”.

**İsmayıl**

# ABŞ Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşır




**ABŞ Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşır.**

**Trend-in məlumatına görə, bunu ABŞ Dövlət Departamentinin nümayəndəsi Cameron Millard noyabrın 18-də Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovla keçirilən görüşdə deyib.**

Qonaq iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, Azərbaycan Vətən müharibəsində əldə etdiyi Zəfərdən sonra regionda yeni reallıq yaradıb və yeni təşəbbüslərlə çıxış edir.

Söhbətdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndələri - Siyasi işlər şöbəsinin rəhbəri Mihail Seroka və Siyasi işlər üzrə müşavir Brett Dvorak iştirak ediblər.

# Paşinyan istintaq komitəsinə çağırılıb

## Baş nazir 44 günlük müharibə ilə bağlı dindirilib



**Ermənistan Baş naziri Nikol Paşinyan İstintaq komitəsi tərəfindən şahid qismində dindirilib.**

APA xəbər verir ki, bu barədə ”Azadlıq radiosu”nun Ermənistan bürosu İstintaq komitəsinə istinadən məlumat yayıb.

Məlumatda deyilir ki, İstintaq Komitəsinin Hərbi cinayətlərin istintaqı baş idarəsinin xüsusi əhəmiyyətli işlərin araşdırılması idarəsi bu ilin may ayının 4-dən etibarən, 44 günlük müharibə dövründə Ermənistanın yüksək vəzifəli şəxsləri tərəfindən, vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, törədildiyi ehtimal olunan cinayət faktı üzrə ilkin istintaq tədbirləri həyata keçirir. İstintaq tədbirləri çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyan da şahid qismində dindirilib.

Paşinyanın dindirilməsini ölən hərbi qulluqçuların qohumları tələb edib və aprel ayından başlayaraq hökumət binasının və Baş prokurorluğun binası qarşısında aylarla davam edən aksiyalar zamanı bu tələblərlə çıxış ediblər.

Onlar Paşinyanın müttəhim qismində dindirilməsini tələb ediblər.

Paşinyanın nə vaxt dindirilməsi və hərbçilərin qohumlarının tələbi ilə onun barəsində hərbi cinayət törətməsi ittihamının irəli sürüləcəyi haqda dəqiq məlumat verilməyib.



# Ərdoğanla Putin arasında telefon danışığı olub

## Türkiyə-Rusiya münasibətlərindəki inkişaflar və taxıl dəhlizi müzakirə edilib

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığı olub.**

Görüş zamanı regional məsələlər, xüsusilə Türkiyə-Rusiya münasibətlərindəki inkişaflar və taxıl dəhlizi müzakirə edilib.

Prezident Rəcəb Tayyib Ərdoğan görüşdə Rusiya prezidenti Putinə taxıl ixracı ilə bağlı İstanbul razılaşmasının 120 gün uzadılması ilə bağlı konstruktiv mövqeyinə görə təşəkkür edib.

Rusiya prezidenti Putinin Türkiyədə təbii qaz mərkəzi yaratmaq təklifindən məmnun olduqlarını ifadə edən R.T. Ərdoğan, komandaların ən qısa zamanda ortaq hədəflərə çatması üçün lazımi texniki, hüquqi və ticari qiymətləndirmələri edəcəklərini bildirib.

# İran vətəndaşlarının Türkiyədə aldığı daşınmaz əmlak sayı azalıb



**2022-ci ilin oktyabr ayında İran vətəndaşları Türkiyədə 498 daşınmaz əmlak alıblar ki, bu da 2021-ci ilin oktyabr ayı ilə müqayisədə 767 obyekt azdır.**

Trend-in xəbər verir ki, TurkicWorld bu barədə Türkiyənin Torpaq Kadastrı və Daşınmaz Əmlak Alqı-Satqısı üzrə Dövlət orqanına istinadən məlumat verir.

Məlumata görə,2022-ci ilin yanvar-oktyabr aylarında İran vətəndaşları Türkiyədə 7 min 38 daşınmaz əmlak satın alıblar ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 3 min 18 obyekt azdır.

2022-ci ilin oktyabr ayında Türkiyədə 102 min 660 əmlak satılıb ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 25,3 faiz azdır. Oktyabr ayında Türkiyədə əcnəbilərə 5 min 377 əmlak satılıb ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 8,8 faiz azdır.

# Kreml Qarabağ planından çəkinməyib

## Hətta bu planın ilkin versiyası ona görə deşifrə olundu ki, Azərbaycanın qarşısına Vardanyan kimi adamı çıxartdılar



**”Məsələ asan deyil. Vacib olan odur ki, Ermənistan, əslində, istədiyini açıq şəkildə elan edir. Əgər onlar Qarabağda ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirlərsə, bu, alınmayacaq. Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib”.**

Bu barədə Prezident İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə bildirib. Dövlətimizin başçısı deyib ki, biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq: ”Yeri gəlmişkən, bu proses başlayıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur. Artıq söylədiyim kimi, Azərbaycan, Avropa İttifaqı, Birləşmiş Ştatlar və Rusiya arasında, yəni Azərbaycanın bu işdə yardımçı ola bilən hesab etdiyi həmin ölkələr və qurum arasında konsensus olmalıdır”.

**Mövzunu ”Şərq”ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli vurğulayıb ki, ölkə rəhbərinin bu çıxışı Moskvanın Qarabağa və Azərbaycana yönəlik planlarından razı olmadığını göstərdi:** ”Bu həm də tərəflərin sülh müqaviləsi imzalamasına yaxın olduğunun sübutudur. Yəni hansısa şərtlərin razılaşdırılması prosesi gedir. Lakin burada mütləq Rusiyanın Qarabağ planı var. Hətta bu planın ilkin versiyası ona görə deşifrə olundu ki, Azərbaycanın qarşısına Vardanyan kimi adamı çıxartdılar. Çünki digər qondarma rejim təmsilçiləri cinayətkardır və Azərbaycan tərəfindən axtarışa veriliblər.

Bu səbəblə də onların masaya oturması mümkünsüzdür. Bütün bunları nəzərə alan Kreml isə Ermənistanla birlikdə alternativ plan işləyib. Prezident İlham Əliyevin bu sözləri Aİ-nin Şərq tərəfdaşlığı üzrə elçisi ilə görüşdə deməsi, Azərbaycanın sülh müqaviləsinə yönəlik baxışlara dair alternativlərinin olduğunu ortaya qoyur. Yəni biz təkcə Moskva və Vaşinqtonun mövqeyini əks etdirən məsələlərə baxmırıq. Biz həmçinin Avropa İttifaqı xətti ilə böyük uğurlar əldə etmişik. Bu isə davamlıdır və strateji olaraq uzun müddətə hesablanıb.

Ona görə də qondarma rejim məsələsini Sülh gündəliyinə pərçim eləmək istəyinə qarşı dövlət rəhbərimiz dərhal cavab verdi. Həm Aİ anlayışı, həm Qarabağdakı terrorçular, həm də Qarabağda yaşayan ermənilər üzərindən mesaj ötürüldü. Bu isə oradakılar mənim əhalimdir və danışıqları özüm apara bilərəm yanaşmasıdır”.

**Nihat Müzəffər**

# Səfirliklərin açılması tarixi hadisədir

## Qərar Azərbaycanın İsrail və Fələstinlə əlaqələrinə müsbət təsir edəcək

**Azərbaycan İsraildə səfirlik, Fələstində isə diplomatik nümayəndəlik açır. Bununla bağlı məsələ parlamentin dünən keçirilən iclasının gündəliyinə daxil edilib.**

Parlamentarilər ”Azərbaycan Respublikasının İsrail Dövlətində (Tel-Əviv şəhərində) Səfirliyinin təsis edilməsi haqqında” və ”Azərbaycan Respublikasının Fələstin Dövlətində (Ramallah şəhərində) Təmsilçilik Ofisinin təsis edilməsi haqqında” qanun layihəsini müzakirə ediblər və sənəd birinci oxunuşdan qəbul olunub.

**Məsələnin siyasi əhəmiyyətini ”Şərq”ə şərh edən Yaxın Şərq ölkələri üzrə ekspert, əməkdar jurnalist Vüqar Ziferoğlu bildirib ki, ölkəmizin İsrail və Fələstinlə əlaqələri möhkəmləndirmək üçün atdığı addımlar çox vacib və təqdirəlayiqdir:** ”Azərbaycan islam həmrəyliyinə öz töhfələrini vermiş və verməkdə olan bir ölkədir. Bu mənada Fələstində nümayəndəliyimizin açılması gözlənilən idi. Nəzərə almalıyıq ki, bundan öncə də Azərbaycan islam ölkələri ilə bağlı bir sıra tədbirlərə ev sahibliyi edib və islam ölkələri ilə ikitərəfli və çoxtərəfli münasibətlərə malikdir. Fələstin də islam dünyasının ayrılmaz hissəsi olduğu üçün orada nümayəndəliyimizin açılması xoş haldır”.



*İsraildə səfirliyimizin açılmasına gəlincə, V.Ziferoğlu diqqətə çatdırıb ki, rəsmi Təl-Əvivlə rəsmi Bakı arasındakı əlaqələr çoxşaxəli və çoxvektorludur:*

”Azərbaycanla İsrail hər zaman biri-birinə yaxın ölkələr olublar. Bizim Xəzər xaqanlığı kimi ortaq tarixi dəyərimiz var. Üstəlik, İsraillə Azərbaycanın münasibətləri hər zaman yaxın və strateji tərəfdaş münasibətləri olub. Bu mənada da İsraildə səfirliyimizin açılması həm arzuolunan, həm də müsbət bir hadisədir”.

**Nihat Müzəffər**




# ATƏT XİN Şurasının iclasına Rusiya nümayəndələri buraxılmayacaq

**ATƏT XİN Şurasının iclasına Rusiya nümayəndələri buraxılmayacaq.**

”Report” xarici KİV-ə istinadən xəbər verir ki, Polşa Rusiya nümayəndə heyətini Varşavada keçiriləcək iclasa buraxmayacaq. İki həftə əvvəl Polşanın Rusiya və Belarusa bu görüşə dəvət göndərdiyi bildirilirdi.

Bundan əvvəl məlum olub ki, Varşava Rusiya parlamentarilərinə ATƏT Parlament Assambleyasında iştirak etmək üçün viza verməkdən imtina edib.

# Ərdoğan və Zelenski arasında telefon danışığı olub

## ”Taxıl müqaviləsinin uzadılmasını yüksək qiymətləndirdik”

**Ukrayna Prezidenti Vladimir Zelenski və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

APA xəbər verir ki, bu barədə Prezident Zelenski ”Twitter”də bildirib.

”Prezident Ərdoğan ilə telefon danışığında taxıl müqaviləsinin uzadılmasını yüksək qiymətləndirdik. Mən bu təşəbbüsümüzü dəstəklədiyi üçün Türkiyə Prezidentinə təşəkkür etdim və Ukraynanın ərzaq sabitliyinin təminatçısı olaraq qalacağına əmin etdim. Təhlükəsizlik və enerji əməkdaşlığını da müzakirə etdik”, - o qeyd edib.

# DTX milyarder Fərhad Əhmədovun evində və obyektlərində axtarış aparır



**Azərbaycan əsilli, rusiyalı milyarder Fərhad Əhmədovun evində və obyektlərində axtarışlar aparılır.**

APA-nın əldə etdiyi məlumata görə, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən milyarderin Göyçayda yerləşən villasında və ona məxsus obyektlərdə axtarışlar keçirilib.

Lakin onun saxlanılması ilə bağlı yayılan xəbərlər həqiqəti əks etdirmir.

# 5 il əmək stajı tələb olunur

## "Birinci qrup əlillərin pensiya almasında problem var"



**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasda 2023-cü ilin dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri və digər qanunlara dəyişikliklərlə bağlı layihələr müzakirə edilib. Deputat Fəzail Ağamalı deyib ki bu gün uşaq pulu məsələsi çox aktualdır. Onun sözlərinə görə, ünvanlı sosial yardım uşaq puluna transfer edilməlidir:**

"Ünvanlı sosial yardım vəsaiti uşaq pulu kimi verilsin, bu məsələyə də birdəfəlik son qoyulsun". Deputat qeyd edib ki, xaricdə yaşayan güneyli soydaşlarımızdan müraciətlər alırlar: "Onlar zamanında İranın repressiyasına məruz qalaraq xaricdə yaşamağa məcbur olublar və Azərbaycana gəlmək istəyirlər. Vaxtilə İranın təzyiqi ilə xarici ölkələrə yayılan güneylilərin Azərbaycana gəlişi təmin edilməlidir".

**"Mülki insanlar arasında da əlil olanlar var"**

**Deputat Sahib Alıyev deyib ki, vətəndaşlar arasında I qrup əlillərin pensiya almasında problem var. O qeyd edib ki, onlardan 5 il əmək stajı tələb olunur:** "Təbii ki, anadangəlmə əlil olan, çox erkən yaşda əlil olan insanın 5 il sığorta stajının olması mümkünsüzdür. Təklif edirəm ki, bu, aradan qaldırılsın. Eyni zamanda Vətən müharibəsi dövründə erməni təcavüzü nəticəsində mülki insanlar arasında da əlil olanlar var. Onların sayı elə də çox deyil. Ona görə də büdcə üçün bu güzəştin edilməsi elə böyük yük olmayacaq".

**"Səfirliklərimizin ərəb ölkələrində media ilə sıx əməkdaşlığına ehtiyac var"**

**Millət vəkili Ceyhun Məmmədov deyib ki, ermənilər Azərbaycan əleyhinə təbliğatı davam etdirirlər. Onun sözlərinə görə, davamlı olaraq Ermənistanın rəsmi şəxsləri ərəb ölkələrinə səfərlər edirlər:** "Ermənistanın ayrı-ayrı dövlət qurumları ərəb mediası ilə sıx əməkdaşlıq edir, öz yalanlarına onları inandırmağa çalışır, bəzən də buna nail olurlar. Mən davamlı olaraq ərəb mediasına müsahibə verirəm və bunu açıq müşahidə edirəm. Əlbəttə, burada həmin ölkələrdə olan erməni diasporunun təsirləri də rol oynayır. Bu gün Azərbaycan İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə sıx əməkdaşlıq edir, islam həmrəyliyinə mühüm töhfələr verir. Bu baxımdan Prezident İlham Əliyevin Əlcəzairə səfəri, Ərəb Ölkələri Liqasının sammitində iştirakı xüsusi əhəmiyyət daşıyırdı. Bu səfər və Prezident İlham Əliyevin sammitdə cəsarətli çıxışı və Fransanın ünvanına səsləndirdiyi fikirlər ərəb dünyasında böyük rezonans doğurub. Bütün bunlarla yanaşı ermənilərin ərəb ölkələrində Azərbaycan əleyhinə təbliğatının qarşısının alınması üçün səfirliklərimizin ərəb ölkələrində daha fəal iş aparmasına və media qurumları ilə daha sıx əməkdaşlıq etməsinə ciddi ehtiyac var. Eyni zamanda xarici mediada, xüsusilə ərəb mətbuatında bir sıra hallarda Ermənistanın yaydığı yalan məlumatların monitorinqinin aparılması və vaxtında qarşısının alınması üçün koordinasiyalı fəaliyyətə xüsusi ehtiyac var. Eyni zamanda düşünürəm ki, hətta bu istiqamətdə bir mərkəzin yaradılması məsələsi də nəzərdən keçirilə bilər".

**"Qarabağ və Şərqi Zəngəzurda görülən işlər Azərbaycanın qüdrətinin nümayişidir"**

**Deputat Vüqar İskəndərov deyib ki, Qarabağ və Şərqi Zəngəzurda görülən işlər, həmin yerlərin dirçəldilməsi prosesi birbaşa Prezidentin nəzarəti altında həyata keçirilir:** "Dövlət başçısının rəhbərliyi altında bütün dünyaya nümunə olacaq sürətli və keyfiyyətli tikinti-quruculuq işləri aparılır. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı mahiyyət etibarilə Azərbaycan Respublikası Prezidentinin ərazilərimizin dirçəldilməsi ilə bağlı iradəsinin ifadəsi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirməklə bağlı sözlərinin əməli təzahürü, bunu reallaşdırmağın praktiki planıdır". Deputat qeyd edib ki, Prezidentin ərazilərin bərpası və əhalinin qayıdışına dair qarşıya qoyduğu hədəflər təhlükəsizlik, müasir yaşayış məntəqələrinin salınması, əhalinin dayanıqlı məskunlaşması, əhatəli və qabaqcıl standartlara cavab verən infrastrukturun qurulması, ərazilərin iqtisadi inkişafının dəstəklənməsi və ekoloji təmiz mühitin təmin edilməsidir. Vüqar İskəndərovun sözlərinə görə, bu istiqamətlər üzrə atılan addımların əsasən də daxili imkanlar hesabına olunması bir çox ölkələr üçün əlçatmaz bir təcrübədir: "İşğaldan azad olunan ərazilərimizdə görülən işlərin demək olar hamısını daxili büdcəmiz hesabına həyata keçiririk. Əlbəttə, müharibədən çıxmış bir dövlətin qısa müddət ərzində bu qədər iş görməsi və gələcək üçün böyük planların həyata keçirilməsi fonunda son illərə nəzər salsaq, bəlkə də Azərbaycan dünyaya nümunə olacaq bir ölkə statusundadır. Çünki həm dünyada baş verən iqtisadi böhranlar, pandemiya, müharibələr, həm də regionda baş verənlərdən sonra bu qədər işləri görən yeganə ölkə elə Azərbaycan ola bilərdi. Hətta onu da qeyd etməliyik ki, Dövlət Proqramına əsasən növbəti 4 il üçün Qarabağ və Şərqi Zəngəzurda planlaşdırılan işlər tikinti və quruculuqla məhdudlaşmır. Tədbirlər Planının əhəmiyyətli bir hissəsi dayanıqlı icmaların yaradılması, sahibkarlıq fəaliyyəti üçün əlveris?li mexanizmlərin, gələcəkdə məşğulluğun təmin edilməsi və s. kimi kompleks məqsədlərə söykənir. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində bu proqramlar tam və keyfiyyətli formada başa çatacaq".

**İsmayıl Qocayev**



**"Hazırda İran Zəngəzur dəhlizinə və dislokasiyaya mane olan dövlətlərdən biridir". Bu barədə millət vəkili Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, 30 il müddətində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən səsvermələrdə iştirak edən İran və ATƏT həmsədrlərindən olan Fransa Zəfərdən sonra sanki ciddi narahatlıq yaşayırlar:**

# Sülhü ləngidənlər açıq-aydın görünür

## İranın strateji marağı Fransa hökumətinin də maraqları ilə üst-üstə düşür

"İndi bir daha bütün ictimaiyyət də gördü ki, niyə münaqişə 30 il müddətində həll olunmayıb. Hazırda Fransa və İran elə bir mövqe nümayiş etdirirlər ki, sanki Ermənistanla deyil, bu iki ölkə ilə müharibə olub. Bu məqamda təbii ki, Ermənistan hakimiyyətinin də rolu böyükdür. Əgər Nikol Paşinyan vahid bir mövqe nümayiş etdirsəydi, bu gün sülhdən və dislokasiyadan yox, qarşılıqlı əlaqələrin bərpasından danışardıq. Düşünmürəm ki, Ermənistan hakimiyyəti özü sərbəst qərar qəbul edib, problemin həllinə çalışacaq iqtidardadır".

**Parlament üzvü vurğulayıb ki, sülhü uzadanlar artıq gizli deyil, açıq-aşkar niyyətlərini ifadə edirlər:** "İranın strateji marağı çox güman ki, Fransa hökumətinin də maraqları ilə üst-üstə düşür. Bu dövlətlər Ermənistanın işğalında olan Azərbaycan torpaqlarından bu günə kimi faydalanıblar, indi də istəmirlər əllərindən çıxsın. Bu, birbaşa elə Fransanın və beynəlxalq hüquq carçısı olan dövlətlərin iştirakı ilə qəbul olunmuş konvensiyalara, bir sözlə, beynəlxalq hüquqa ziddir. Tarixə nəzər salsaq, Fransanın törətdiyi qətliam və faciələri də qabarda bilərik. 100 illər əvvələ qədər öz qonşularına qarşı terror törətmiş bir dövlətin əqidə və məramca özünə yaxın olan Ermənistanı dəstəkləməsi də adi haldır. İranın isə dünyada törədilən əksər terror aktlarında adı çəkilir, terror təşkilatlarını yaratmaq və maliyyələşdirməkdə ittiham olunur. İllərdir ki, Qərbin İrana qarşı aqressiyası da bununla bağlıdır".

**M.Cəfərov qeyd edib ki, bu gün bütün dövlətlərlə münasibətlər yaratmaqda, qarşılıqlı, xoş niyyətli ittifaqlar qurmaqda olan Azərbaycan hər zaman İran və Fransaya xoş məramını nümayiş etdirib:** "Hətta onların əzəli düşməni olan Böyük Britaniya və İsraillə də münasibətlərdə bitərəfliyini qoruyub. Hazırda ölkəmizdə 300-ə yaxın Fransa şirkəti fəaliyyət göstərir. Fransa hökuməti Azərbaycanın firəngli biznesmenlərə yaratdığı şəraiti də nəzərə almalı idi".

**İsmayıl**

# Antiterrorla mübarizə səyləri birləşdiriləcək

## Türkiyə-İsrail münasibətlərinin yaxınlaşmasının isə bölgəyə çox böyük təsiri olacaq



**Son zamana qədər Türkiyə və İsrail münasibətləri soyuq idi. Bütün siyasi körpülər yandırılmışdı. Lakin son dönəmlər dünyaya gətirilən yeni konfiqurasiyaların fonunda adıçəkilən ölkələr arasında loyallaşma müşahidə olunur.**

Ötən gün İsraildə yeni hökuməti qurmaq tapşırığı alan "Likud" partiyasının lideri Benyamin Netanyahu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Türkiyəli prezidentə İstanbulda baş verən terror aktına görə başsağlığı verib.

**Mövzuya münasibət bildirən politoloq Tofiq Abbasov "Şərq"ə açıqlamasında deyib ki, təşəbbüsü ilk dəfə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan göstərdi.** Türkiyə lideri seçkilərdəki qələbə münasibətilə Benyamin Netanyahunu təbrik edib. Daha sonra isə B.Netanyahu terror aktına görə R.T.Ərdoğana başsağlığı verib.

*Tofiq Abbasovun sözlərinə görə, R.T.Ərdoğan hakimiyyətə gəldikdən sonra, 2010-cu ildən bu günə qədər olan müddətdə Türkiyənin xarici siyasəti xeyli dəyişib:* "Rəsmi Ankara son dərəcə yüksək səviyyədə siyasət yürüdür. Kənar qüvvələrin müdaxiləsinə imkan vermir. Artıq özü hansı ölkə ilə necə münasibət qurmalı olduğunu müəyyənləşdirir. Türkiyə-İsrail münasibətlərinin yaxınlaşmasının isə bölgəyə çox böyük təsiri olacaq. Çünki hər iki ölkə antiterrorla mübarizədə səylərini birləşdirəcək. İki tərəf də anlayır ki, soyuq müharibə sadəcə ölkələrdə itkilərin olmasına gətirib çıxara bilər.

Bu səbəbdən yeni bir əməkdaşlıq mərhələsinə çıxmağın vaxtıdır. Azərbaycan həmçinin Türkiyə ilə qardaş ölkədir. Digər tərəfdən İsrail dövlətimizlə müttəfiq, yaxın dostdur. Bu üçbucağın çox böyük perspektivləri var. Bildiyimiz kimi, Prezident İlham Əliyev İsraildə səfirliyimizin açılması ilə bağlı qərar verib. Müvafiq sənəd imzalanıb. Diplomatik nümayəndəliyimizin də orada fəaliyyətə başlaması üçbucaq çərçivəsində imkanların genişləndirilməsinə şərait yaradacaq".

**Sücayət Mehti**

# Moskva prosesi sinirə bilmir

## Çünki Soçi danışıqlarından sonra Qərb ön plana çıxıb



**Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.**

**Məlumata görə, söhbət zamanı iqtisadiyyat, ticarət və enerji sahələrində Rusiya-Azərbaycan əməkdaşlığı məsələləri müzakirə edilib.**

*Hazırda Moskvanın region ölkələri ilə daha sıx siyasi-iqtisadi əlaqə qurmağa ehtiyacı olduğunu deyən siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, bu telefon zəngi və bundan bir gün sonra Rusiyanın Baş naziri Mixail Mişustinin Bakıya səfəri, Azərbaycanla Kreml arasında aktual məsələnin ikitərəfli münasibətlər olduğunu göstərir:* "Hər iki lider sonuncu dəfə Soçidə görüşmüşdü. Bundan sonra isə onlar arasında danışıq olmayıb. Rəsmi məlumatda qeyd olunmasa belə, bu danışıqda həm Qarabağ məsələsinin, həm də bölgədəki vəziyyətin müzakirə olunduğunu hesab edirəm. Fikrimcə, bu danışıq daha çox Rusiyanın Soçi razılaşması ilə bağlı praktiki mərhələdə hansısa bir addımın atılmasına hesablanıb.

Yəni biz bilirik ki, Soçi danışıqlarından sonra Qərb daha ön plana çıxıb. ABŞ dövlət katibi Antoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə zəngi, sülhün məhz Avropa İttifaqı və Qərblə daha sıx müzakirə olunması ABŞ-ın planının daha öndə olduğunu göstərir. Buna qarşı isə Rusiya Soçi razılaşmasının hansısa müddəası ilə bağlı addım atılmasına və beləliklə də önə keçməyə çalışır. Bu praktiki addım isə daha çox ictimaiyyətlər arasında əlaqələri ilə bağlıdır.

Soçi razılaşmasına da iki ölkənin parlamentləri arasında görüşlərin keçirilməsi və əlaqələrin yaradılması məsələsi daxil edilmişdi.

Putinin zəngindən bir neçə saat öncə isə Rusiyanın xüsusi nümayəndəsi Ceyhun Bayramovla görüşmüşdü. Ümumiyyətlə, Kreml Ermənistanla Azərbaycan arasındakı əlaqələrin onun təşəbbüsü ilə bərpa olunmasını istəyir.

Digər tərəfdən yaxın zamanlarda Putinin İrəvan səfəri və Moskvanın Qafqaz üzrə xüsusi nümayəndəsinin Bakıya gəlişi gözlənilir. Bu da Şimal qonşumuzun Soçi görüşündəki məsələləri praktiki addımlarla ələ almaq istədiyini göstərir. Biz bu təması yaxın dövrdə daha intensiv şəkildə görəcəyik".

**Nihat Müzəffər**

# Ordumuzun mövqeləri atəşə tutulub

## Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb



**Noyabrın 18-i saat 12:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu və Basarkeçər rayonunun Yuxarı Zağalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, bundan başqa, saat 17:10-da Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Ordumuzun Füzuli rayonunun Yuxarı Veysəlli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri atəşə tutulub.

*Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.*

# KTMT yaxın vaxtlarda dağılacaq

## Təşkilat Rusiya və Belarusdan ibarət bir təşkilat səviyyəsinə enəcək



**"Rusiya 30 ildir Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını regional müstəvidə inkişaf etdirə bilmədi. Üstəlik, təşkilat daxilində ziddiyətlər yaradaraq üzv ölkələrə qarşı təzyiqlərini artırdı".**

*Bunu "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, bu təşkilatın vaxtı ilə üzvü olan Azərbaycan və Özbəkistan qurumu tərk ediblər:*

"Rusiyanın strateji müttəfiqi olan Ermənistanın da bu təşkilatdan çıxması barədə çağırışlar edilir. Ermənistanda gələn həftə keçiriləcək KTMT toplantısı sadəcə görüntü xarakteri daşıyacaq. Rusiyanın Ukraynada hərbi-siyasi məğlubiyyəti nəticəsində KTMT-nin yaxın perspektivdə dağılması da mümkündür. Rusiyanın üzv ölkələrə qarşı siyasi təzyiqləri və basqıları da təşkilat daxilində parçalanmaya gətirəcək. Demək olar ki, KTMT Rusiya və Belarusdan ibarət bir təşkilat səviyyəsinə enəcək. Halbuki, Rusiya bu təşkilatı təsis edərkən NATO-ya alternativ olacağını düşünmüşdü. Amma Rusiyanın Azərbaycana qarşı Ermənistanın əli ilə vəkalət müharibəsi aparması, Gürcüstan və Moldovada separtizmi alovlandırması sözügedən qurumu inkişafdan saxladı. Rusiya öz yaratdığı təşkilata mismarı elə özü vurdu".

Ekspert vurğulayıb ki, Mərkəzi Asiya ölkələri, xüsusilə KTMT üzvləri - Qazaxıstan və Qırğızıstan Türkiyə orbitinə yaxınlaşır: "Türk Dövlətləri Təşkilatına üzv olan Qazaxıstan və Qırğızıstan həm də KTMT üzvüdür. Uzaq olmayan perspektivdə TDT nəzdində yeni hərbi pakt təsis edilməsi gözlənilir. Belə olan təqdirdə KTMT-nin Mərkəzi Asiyada rolu daha da zəifləyəcək. Rusiya Qərb cəbhəsində qürub etməklə, yaratdığı təşkilatları da özü ilə batırır".

**İsmayıl**





# Vardanyan oyununun hədəfi ortaya çıxır

## Rusiyaya mesaj verildi, Bakı “qaranlıq plana” imkan verməyəcək

İsmayıl Qocayev

**Prezident İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bir sıra məqamlara diqqət çəkib. Dövlət başçısı bir müddət öncə separatçılara dəstək üçün Xankəndinə gələn, daha doğrusu, göndərilən milyarder Ruben Vardanyan barəsində də danışıb.**

Ölkə rəhbəri vurğulayıb ki, Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox: ”O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur. Artıq söylədiyim kimi, Azərbaycan, Avropa İttifaqı, Birləşmiş Ştatlar və Rusiya arasında, yəni Azərbaycanın bu işdə yardımçı ola bilən hesab etdiyi həmin ölkələr və qurum arasında konsensus olmalıdır”.

**Dövlət başçısının diqqət çəkdiyi məqamı ”Şərq”ə təhlil edən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Prezident İlham Əliyev Qarabağa gətirilən Ruben Vardanyanla bağlı mövqeyini açıq mətnlə elan etdi. Analitikə görə, Rusiyaya mesaj verdi ki, ”Vardanyan planı”na imkan verilməyəcək:** ”Qərb izah etdi ki, Bakı Qarabağda yaşayan ermənilərlə danışmağa hazırdır. Amma rusların planına uyğun deyil və ermənilərlə təmasa mane olan da Moskvadır. Əsas məqam Prezidentin Vardanyan məsələsini niyə indi və Aİ elçisini qəbul edərkən dilə gətirməsidir. Bu haqda öncə də yazmışdıq. Qərb Qarabağdakı ermənilərlə Bakının təmaslar yaratmasını dəstəkləyir və bununla bağlı beynəlxalq mexanizmin indi yaradılmasını istəyir. Bu təklifi Bakı da qəbul edir, lakin separatçı-terrorçu rejimlə yox. Erməni əhalisi ilə və mövcud situasiyada beynəlxalq mexanizmin indi yaradılmasına istəmir. Burada Vardanyan oyununun hədəfi ortaya çıxır. Təmaslarla bağlı beynəlxalq mexanizmin indi yaradılması separatçı-terrorçu rejimin ”erməni əhalisinin nümayəndəsi” kimi qəbul edilməsi deməkdir. Bakı bunu qəbul etmir. Bakının bunu qəbul etməyəcəyini bildikləri üçün Vardanyanı Xankəndinə gətirdilər. Qondarma ”dövlət naziri” etdilər və istisna deyil ki, təmaslar planlaşdırdıqları kimi baş tutarsa, Araik oyundan çıxarılacaq. Vardanyan ”erməni əhalisinin təmsilçisi” kimi masaya əyləşdiriləcək. Xankəndidə təşkil edilən təxribat mitinqi də buna hesablanmışdı”.

*Ekspert bildirib ki, Vardanyanın gətirilməsi həm də Azərbaycanın ”cinayət işi açdığı separatçıların rəhbərləri ilə təmas qurmaq istəməməsi” arqumentinə qarşı hazırlanmış plandır:* ”Planı quran və icra edən Rusiyadır. Lakin Ermənistan və erməni lobbisi də ortaqdır. Fransanın da bu prosesdə maraqlı tərəf olduğu bəllidir. Ölkə rəhbəri İlham Əliyev məhz bunun mesajını verdi ki, Rusiya erməni əhalisi ilə təmaslar üzərindən oyun qurur, bunu qəbul etməyəcəyik. ”Azərbaycan, Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları və Rusiya arasında konsensus” məsələsi də təmaslarla bağlı beynəlxalq mexanizmin indi yaradılmasını arxa plana keçirməyə hesablanıb. Bakı tərəflərə ”ortaq məxrəcə gəlin, sonra müzakirə edək” mesajı verir”.

# Təklif realdır

## Sərhəddə xidmət edən hərbçilərin maaşı artırılmalıdır



**Milli Məclisdə sərhəddə xidmət edən hərbçilərin maaşının 50 faiz qaldırılması təklif olunub. Bu təşəbbüslə parlamentin dünən keçirilən iclasında millət vəkili Zahid Oruc çıxış edib. O bildirib:**

”Təklif edirik ki, yeni qazandığımız və hələ delimitasiya edilməyən sərhədlərdə hərbi mövqe tutan zabit və əsgərlərin ödənişləri indiki kimi 20 faiz deyil, 50 faizə qədər artırılsın. Bundan ötrü 100 milyonlara ehtiyac yoxdur, lakin nəticə təhlükəsizliyimiz üçün önəmlidir”.

**Təklifə münasibət bildirən hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə söyləyib ki, bu, kifayət qədər realdır:** ”Sərhəddə xidmət edən hərbçilərin maaşının neçə faiz qalxacağı isə sərəncam imzalandıqdan sonra məlum olacaq.

Hər bir halda növbəti ilin yanvar ayının 1-dən hərbi qulluqçularımızın maliyyə vəziyyətinin yaxşılaşdırılması üçün addım atılması gözləniləndir. Bu həm də veteranların və müharibə əlillərinə ödənilən vəsaitlərin miqdarına təsirini göstərəcək”.

**Aygün Tahir**

# "Etika, müəllif hüquqları və jurnalistika"

## Media işçiləri üçün təlimlərə başlanılıb





**Noyabrın 18-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə 40-a yaxın jurnalist üçün ”Etika, müəllif hüquqları və jurnalistika” mövzusunda təlimlərə başlanılıb.**

Təlimin açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib ki, media etikası jurnalist peşəkarlığının əsas prinsipi olmalı, jurnalist peşəsinə sadiqlik nümayiş etdirməli, müəllif hüquqlarına hörmətlə yanaşmalı, təqdim etdiyi faktları təhrif etməməlidir. O, daha sonra MEDİA-nın media nümayəndələrinin peşəkarlığının artırılması istiqamətində həyata keçirdiyi layihələrin əhəmiyyətini vurğulayıb.

ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva jurnalistlərin etik davranış qaydalarına riayət etməsinin vacibliyindən bəhs edib, belə təlimlərin ictimaiyyətə dolğun informasiya çatdırma funksiyasını ən yüksək şəkildə icra etməsi üçün media nümayəndələrinin fəaliyyətinə töhfə verəcəyini bildirib.

ADA Universitetində keçirilən təlimlərdə spiker kimi çıxış edən Türkiyənin bir çox media subyektlərində çalışmış, 4 il ”The Washington Times”da köşə yazarı kimi fəaliyyət göstərmiş, 30 il xarici siyasət şərhçisi olmuş, bundan əlavə bir çox məqaləlvaleri ”New York Times”, ”International Herald Tribune”, ”ForeignPolicy.com”, ”Daily Caller”, ”Daily Star”, ”Middle East Times” ve ”SAIS Turkey Analyst Report” kimi media subyektlərində nəşr edilmiş Tülin Daloğludur. O, ”Jurnalistikada etika və müəllif hüquqları nədir?”, ”Redaksiya siyasəti və jurnalist etikası: peşəkar dəyərlərin formalaşması”, ”Yeni media və etika: internet jurnalistikasında tez-tez rast gəlinən etik pozuntular”, Medianın hazırkı vəziyyəti - ictimai gözləntilər və jurnalistika prinsipləri” və s. mövzularında çıxış edəcək, interaktiv müzakirə sessiyalarında jurnalistləri maraqlandıran sualları cavablandıracaq.

*Qeyd edək ki, 2 gün davam edəcək təlimlərin məqsədi jurnalist peşəsinin əsas prinsiplərinin, etika qaydalarının və müəllif hüquqlarının qorunmasının, ictimaiyyəti düzgün məlumatlandırmaq məsuliyyətinin vacibliyinin bir daha vurğulanmasıdır.*

# KTMT liderləri İrəvana toplaşır

## Əleyhimizə hər hansı qərar gözlənilmir



**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv dövlətlərin liderlərinin noyabrın 23-də İrəvanda toplantısı olacaq.**

Ukraynaya qarşı işğalçı müharibə başlayandan bu yana xarici səfərlərə çıxmayan, hətta ”böyük iyirmilərin” toplantısına qatılmayan Rusiya Prezidenti Vladimir Putin İrəvandakı toplantıda iştirakını təsdiqləyib. Çünki ”böyük iyirmilərin” İndoneziya toplantısından fərqli olaraq Ermənistanda toplaşanlar Rusiyanın tərəfdaşlarıdır və Ukrayna müharibəsini dilə gətirməyəcəklər.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Vladimir Putin İrəvana getmədən öncə Azərbaycan və Türkiyə prezidentləri ilə telefonla danışıb.** Analitik qeyd edib ki, Kreml sahibinin Qarabağ siyasəti Azərbaycanın maraqlarına zidd olsa da, Ruben Vardanyanı Xankəndinə göndərib Bakı ilə təmaslara başlamaq üçün təşviq etsə də, Putinin İrəvanda Ermənistanın Azərbaycan əleyhinə mövqeyini dəstəkləyəcək sənədə imza atması ehtimalı yüksək deyil: ”Putin bunu edərsə, Azərbaycan-Rusiya münasibətlərinə zərbə vurmuş olacaq. Ermənistanın Baş naziri Nikol Paşinyan əlindən gələni edəcək ki, İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Azərbaycan əleyhinə bəyanat qəbul etsin. Böyük ehtimalla bu alınmayacaq. Rusiya bir yana, təşkilatın üzvü olan Qazaxıstan, Qırğızıstan və Belarus da Azərbaycan əleyhinə sənədə səs verməyəcəklər. Bu sənədin qəbul edilməməsi Nikol Paşinyanın kefini pozmayacaq, əksinə, erməni cəmiyyətinə bir daha deyəcək ki, ”gördüz, KTMT bir işə yaramır, Ermənistanın maraqlarını qorumur, bəxtimizi başqa istiqamətlərdə axtarmalıyıq”.

**İsmayıl**



**“Ay ərzində qiymətlər 15, bəzən 20 faiz artır. O baxımdan yaşayış minimumu, ehtiyac meyarı artırılsın demək uyğun olmayacaq. Hətta 50-100 manat artım belə bu günün bahalığında heç nədir”.**

*Bu sözləri Milli Məclisin dünənki iclasında millət vəkili Razi Nurullayev deyib. Deputat bildirib ki, son beş ildə məhsul, material və xidmətlərdən asılı olaraq qiymətlər ən azı 3-5 dəfə*

# Deputat xalqın dərdini anlatdı

## Son illər qiymətlər ən azı beş dəfə bahalaşıb

*artıb:* ”Baxaq görək, pensiyalar, müavinətlər və digər sosial paketlər nə qədər artıb? Bu artım gündən-günə daha da geniş vüsət alan bahalıq fonunda cüzidir. Bir gün supermarketə daxil olursan, bazarlıq edirsən, deyək ki, 50 manat ödəyirsən. Bir həftə sonra gedirsən, eyni məhsulları alırsan, 55-60 manat ödəyirsən. Ay ərzində isə artım 15, bəzən 20 faiz təşkil edir. Elə məhsullar var ki, fantastik qiymətə qalxır və sonra bir az aşağı salınır. Bir kq mal ətinin qiyməti 14-16 manat, qoyun əti isə 18 manatdan başlayır. Əgər daha keyfiyyətli ət almaq istəsən, üzərinə 4-5 manat də gəl. Bizdən asılı olmayan və bütün dünyadan qaynaqlanan bahalıq fonunda vətəndaşların sosial durumu ağırlaşıb. Təbii ki, hökumət də bu dediklərimi bilir, narahatdır və yüngülləşdirici addımlar atır. Bunu bilir və qiymətləndirirəm. Amma gərək, daha çox gözlə görünə bilən, real və dərhal rahatlıq yaradan addımlar da ataq”.

**Parlament üzvünün sözlərinə görə, Avropa ölkələrində kritik ərzaq məhsulları Azərbaycandakından xeyli ucuzdur:** ”Hərçənd ki orada əmək qüvvəsi də, maaşlar da, xidmətlər də bizdən qat-qat yuxarıdır. Bəs ərzaq məhsullarının ucuz olması, kasıblar üçün təşkil olunan market və bazarlarda isə məhsulların az qala bizdən 3-4 dəfə ucuz olmasının səbəblərini bilirikmi? Bəlkə bu, logistika, daşınma, gömrük, vergi və digər məsələlərlə bağlıdır? Biz niyə bu təcrübəni öyrənib tətbiq etməyək? İkincisi, qarşıdan soyuq qış gəlir, insanların elektrik enerjisinə, təbii qaza daha çox ehtiyacı yaranacaq. Təyin etdiyimiz yaşayış minimumu və ehtiyac meyarı təbii qazla elektrik enerjisinin aylıq ödənişinə kifayət edir. Burada iki yanaşma ola bilər, ya qış ərzində təbii qaz və elektrik enerjisinin limiti götürülsün və fərqini büdcə ödəsin, ya da vətəndaşlara daha ucuz alternativ təklif edilsin. Odun, daş kömür və digər yanacaq materialları. Yəni vətəndaş 5-10 manatını qoruya bilsin ki, elə aldığını da təzədən geri ödəməsin. Bəs nə ilə dolansın?”.

**İsmayıl Qocayev**

# Siyasət dəyişməyib...

## Son yüz ildə panfarsçılıq Güney Azərbaycan türkünün dilini, mədəniyyətini danıb ərazilərini parçalamaqla assimilyasiya edib



**İranda yüz ilə yaxındır hakim olan panfarsçılıq ideologiyasının başlıca hədəfi Güney Azərbaycan türklərini assimilyasiya etməkdir. Çünki ölkənin idarə edilməsində əsas pay sahibi onlardır. Bu etnosu hakimiyyətə yaxın buraxmamaq və ya onun assimilyasiyaya uğramış nümayəndələrinin iqtidarda təmsil olunması əsas hədəflərdəndir.**

Müasir İranın tarixində islahatçı hökumət başçısı Məhəmməd Müsəddiq Qacar sülaləsinin hakimiyyətdə olmuş sonuncu nümayəndəsi idi. Beynəlxalq güclər tərəfindən devrilmiş Qacar sülaləsinin yerinə gətirilən Rza şah Pəhləvinin oğlu Məhəmmədrza şahı qəbul etmir və ona qarşı mübarizə aparırdı. Məhz Rza şahın dövründə türklər ”farslarla səlcuqluların tör-töküntüsü”, ”törəməsi” adlanmağa başladı. Habelə türk dili ”fars dilinin bir qolu” sayıldı. Rza şah ”tək millət, tək dövlət”, ”yəni hamı farsdır” prinsipi ilə assimilyasiya apardı. Azərbaycan türkcəsində danışmaq, oxumaq, yazmaq qadağan edildi. Ana dilində danışan türklər cəzalandırıldı. Azərbaycan türkcəsində olan çoxlu sayda kitablar yandırıldı. Proses onun oğlu Məhəmmdrza şahın hakimiyyəti illərində də davam etdi. 1945-46-cı illərdə qurulan Azərbaycan Milli Hökuməti ABŞ, SSRİ, Böyük Britaniya, Fransa və başqa xarici qüvvələrin hərbi-siyasi yardımı ilə qan içində boğuldu. 1946-cı il dekabrın 11-də hökumət devrildi, dekabrın 17-də isə türkcə kitablar kütləvi şəkildə yandırıldı. Bu, Azərbaycan türkünə qarşı repressiya və assimilyasiyanın daha sərt və qəddar şəkildə davam etdiyi illər idi.

**Politoloq Sədrəddin Soltan deyib ki, əslində, hakimiyyət türklərin assimilyasiyasını həyata keçirməyi qarşısına məqsəd kimi qoyub. Analitikə görə, assimilyasiyanın tərkib hissələrindən biri də ərazilərin parçalanması, yeni bölgələrin yaradılmasıdır:** ”Bununla da Tehran hakimiyyəti Güney Azərbaycanı kiçiltməyə çalışır. O, ötən yüz ilin əvvəllərində vahid əraziyə malik olub. Ərazilərin bölünməsi Qacarlar sülaləsinin hakimiyyətinin (1795-1925) son dönəminə təsadüf edib. Bunun əsası 1906-cı ildə ölkə ərazisinin əyalətlərə bölünməsi ilə qoyulub. Bölgüyə əsasən, ölkə 12 vilayətə və bu vilayətlərin mərkəzləşdiyi 4 əyalətə - Şimal, Cənub, Qərb və Mərkəzi bölünmüşdü. Pəhləvi hakimiyyətinin süqutuna doğru Güney Azərbaycanın ərazisi, əsasən, Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Həmədan əyalətləri (ostan) arasında bölünmüşdü. İndiki rejim bu ostanların ərazisindən əlavə olaraq üç ostan və daha kiçik inzibati vahidlər yaratdı. Nəhayət, panfarsçılar ”Türksüz İran” şüarını əllərində bayraq etməklə Azərbaycan türklərinə qarşı assimilyasiya siyasətini daha da sərtləşdirməyə başladılar. Son yüz ildə panfarsçılıq Güney Azərbaycan türkünün dilini, mədəniyyətini danıb ərazilərini parçalamaqla assimilyasiya edib. Bu siyasət dəyişməyib. Qərb nökəri sayılan pəhləvilər nə edirdisə, özünü islamın dayağı sayan indiki teokratik rejim də Güney Azərbaycana qarşı eyni siyasəti aparır. Bu baxımdan İran hakimiyyətinin Qərbin nökəri saydığı Pəhləvidən heç bir fərqi yoxdur. Çünki şahın da, Xomeyni rejiminin də siyasi ideologiyasının əsasında panfarsçılıq durur. Onlar Azərbaycan türkünün assimilyasiyasında bir-birilərini tamamlayırlar”.

**İsmayıl**

# Şərqdə, Asiyada siyasətimiz genişlənir

## Azərbaycanın İsraildə səfirliyi, Fələstində isə təmsilçilik ofisi açılır



**Azərbaycanın İsraildə səfirliyi təsis ediləcək. Bununla bağlı məsələ "Azərbaycan Respublikasının İsrail Dövlətində (Tel-Əviv şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsində əksini tapıb. Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib ki, İsrailin hər zaman beynəlxalq təşkilatlarda bizə dəstəyini görmüşük:**

"Xüsusilə indi dost ölkə ilə, o ölkə ki, 44 günlük Vətən müharibəsində Azərbaycana yardım göstərib, Azərbaycanın haqq səsinə səs verib, bu ölkə ilə əlaqələri genişləndirməliyik". Komitə sədri bildirib ki, Azərbaycanın İsrailin Təl-Əviv şəhərində səfirliyinin açılması ilə bağlı sənədi Prezident İlham Əliyev təqdim edib: "Bununla Azərbaycan-İsrail münasibətləri daha yüksək, yeni müstəviyə keçir. Xalqlarımız arasında əlaqələr daha da inkişaf edəcək". Sənəd müzakirələrdən sonra səsə qoyularaq qəbul edilib. Xatırladaq ki, 25 dekabr 1991-ci il tarixində İsrail Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyıb. İki ölkə arasındakı diplomatik münasibətlər 7 aprel 1992-ci il tarixində qurulub. 1993-cü ilin avqustundan İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. İsrailin Baş naziri Yair Lapid "Twitter" hesabında Azərbaycanın İsraildə səfirlik açmaq qərarını alqışlayıb. Qeyd edib ki, Azərbaycan İsrailin mühüm tərəfdaşıdır və müsəlman dünyasında ən böyük yəhudi icmalarından birinin vətənidir: "Səfirlik açmaq qərarı ölkələr arasında münasibətlərin dərinliyini əks etdirir. Bu addım İsrail hökumətinin müsəlman dünyası ilə möhkəm siyasi körpülər qurmaq səylərinin bəhrəsidir". O, Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib və Azərbaycan xalqını təbrik edib.

Vurğulamaq lazımdır ki, Azərbaycanın İsraildə səfirlik açması ilə yanaşı, eyni zamanda Fələstində, Ramallah şəhərində də təmsilçilik ofisinin yaradılması nəzərdə tutulur. Bununla Bakı İsrail və Fələstin məsələsində beynəlxalq hüquqa əsaslanan mövqeyini qoruyur. İsraildə səfirliyinin açılmamasının səbəblərindən biri də Qarabağ münaqişəsinin mövcud olduğu dövrdə İranın mövqeyinin nəzərə alınması idi. Lakin molla rejiminin son davranışları göstərdi ki, onlar diplomatiyadan, qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıqdan anlamırlar. O baxımdan belə adekvat addımın atılması daha məqsədəuyğun görülüb.

**Millət vəkili, tarix elmləri doktoru, professor Musa Qasımlı bildirib ki, min illər boyu tariximizə işıq tutacaq qərarlar qəbul edilir. Deputatın sözlərinə görə, cənab Prezidentin təşəbbüsü ilə xarici siyasətimiz Afrikada, Şərqdə və Asiyada fəaliyyətini genişləndirir:** "İsrail dövlətində səfirliyimizin açılması tarixi hadisədir. Azərbaycan-İsrail münasibətlərinin təməlində dostluq və qardaşlıq dayanır. Azərbaycan müstəqil olmadığı zamanlarda, İkinci Dünya müharibəsindən əvvəlki dövrdə semitizm olmayıb. İkinci Dünya müharibəsində ermənilər faşistlərlə birləşib yəhudiləri qətl edən zaman Azərbaycan əsirləri yəhudilərə Kəlmeyi-Şəhadəti öyrədərək ölümdən xilas ediblər. Yəhudilər hər zaman azərbaycanlılarla yanaşı bir ailədə yaşayıb - hansı dövlətdən, hansı sistemdən və hansı dövrdən asılı olmayaraq".Deputat qeyd edib ki, müstəqillik əldə etdikdən sonra Azərbaycanda və Ermənistanda yəhudilərə münasibət tam fərqli olub: "Ermənistan anti-semitizm olan 30 ölkədən biridir. Bu, Amerika Yəhudi Komitəsinin statistikasından götürülüb. Azərbaycanda isə anti-semitizm yoxdur. Ramallahda təmsilçiliyimizin açılması bizim ərəb dünyasına açılan qapımızdır. Bizim İsraillə münasibətimiz heç zaman başqa dövlətə görə yönəldilməyib. Hesab edirəm ki, bu səfirliklərin açılması Balkanlarda. Şərqdə, Asiyada dövlətimizi gücləndirəcək".

**İsmayıl Qocayev**



**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr olunan tədbir keçirilib. Tədbirdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, "İstiqlaliyyət 6" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Hikmət Babayev, UNEC-in müəllim-tələbə heyəti iştirak edib.**

# UNEC-də YAP-ın 30 illiyi qeyd olunub



Tədbirin açılışında şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən "İstiqlaliyyət 6" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Hikmət Babayev YAP-ın yaradılmasının 30 illiyi münasibətilə iştirakçıları təbrik edərək, ulu öndər Heydər Əliyevin qurucusu olduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən YAP-ın əldə etdiyi uğurlardan söz açıb. Dövlətçiliyimizin möhkəmləndirilməsinə və dinamik inkişafına mühüm töhfələr verən YAP-ın qısa müddətdə hakim partiyaya çevrilməsinin əsasında xalqın ulu öndərə sevgisinin və inamının dayandığını bildirib.

Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixinə həsr olunan videoçarx nümayiş olunub, UNEC-in tələbəsi "Azərbaycan" şeirini səsləndirib.

YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev partiyanın keçdiyi şərəfli yoldan, gələcək hədəflərindən söz açıb. 30 illik zəngin və şərəfli inkişaf yolu keçən YAP-ın ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək, ölkəmizin inkişafı və formalaşmasında misilsiz rol oynadığını, partiyanın irəli sürdüyü hər bir təşəbbüsün, qəbul etdiyi qərarların dövlətimizin daha da qüdrətlənməsinə, xalqımızın yüksək rifah şəraitində yaşamasına xidmət etdiyini vurğulayıb.

Tədbirdə çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının daha da inkişaf edərək, hazırda sıralarında 800 minə yaxın üzvü birləşdirdiyini diqqətə çatdırıb. Vətən müharibəsində əldə olunan parlaq qələbənin partiyanın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoyduğunu bildirən V.Rəhimzadə, YAP-ın dövlətin qətiyyətli siyasəti, xalqın sarsılmaz həmrəyliyi fonunda öz üzərinə düşən vəzifələri layiqincə davam etdirəcəyini qeyd edib.

Çıxışlardan sonra YAP Səbail rayon partiya təşkilatının ictimai-siyasi həyatında fəal iştirak edən UNEC-in müəllimlərinə Fəxri fərmanlar təqdim olunub. Partiyaya yeni üzv olan tələbələrə üzvlük vəsiqələri təqdim edilib.

# Zaman sözünü dedi

## Azərbaycanın işinə heç bir qüvvə qarışa bilməz

**Azərbaycan İsraildə səfirlik, Fələstində isə diplomatik nümayəndəlik açır. Belə ki, parlamentin dünən keçirilən iclasında deputatlar "Azərbaycan Respublikasının İsrail Dövlətində (Təl-Əviv şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsini müzakirə ediblər. Toplantıda deputatlar eyni zamanda "Azərbaycan Respublikasının Fələstin Dövlətində (Ramallah şəhərində) Təmsilçilik Ofisinin təsis edilməsi haqqında" qanun layihəsini də müzakirə ediblər.**



Qeyd edək ki, Azərbaycanın Albaniya və Keniyada da səfirlik açacaq.

Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanın həm İsraillə, həm də Fələstinlə tərəfdaşlıq münasibətləri mövcuddur: "Sevindirici haldır ki, rəsmi Bakı İsraildə səfirlik açmağa qərar verdi. Fələstində isə diplomatik təmsilçilik olması məqsədəuyğundur. Beləliklə, balans qorundu.

Azərbaycanın İsraildə səfirlik açması barədə qərarı mövcud geosiyasi şərtlər çərçivəsində reallaşdı. Hansı ki bu səfirliklərin bir neçə il əvvəldən açılması arzuolunan idi. Amma buna əngəl olacaq obyektiv və subyektiv səbəblər vardı.

Azərbaycanın İsraildə səfirliyinin açılmamasının səbəbi regiondakı geosiyasi vəziyyət və Qarabağ münaqişəsinin mövcud olduğu dövrdə ərəb ölkələri ilə münasibətləri gərginləşdirməmək və hər hansı bir narazılığa rəvac verməmək idi: "Torpaqlarımızın işğalda olması Azərbaycanı bir çox dövlətlər kimi ərəb ölkələri ilə də həssas siyasət yeritməyə sövq edirdi".

**Politoloqun sözlərinə görə, Azərbaycanın İsraildə səfirliyinin açılmamasının digər səbəbi isə cənub qonşumuzun narazılığını daha da artırmamaq idi:** "Rəsmi Bakının İsraildə səfirlik açmaq qərarına İranın münasibəti birmənalı olmayacaq. Amma hansısa ölkədə səfirlik açmaq məsələsi Azərbaycanın daxili işidir. Necə ki, rəsmi Bakı İranın Qafanda konsulluq açılması qərarına qarışmadı, halbuki, bu birbaşa Azərbaycan əleyhinə atılmış addım idi, eləcə də Tehranın Azərbaycanın İsraildə səfirlik açmasına qarışma hüququ yoxdur.

Azərbaycan bu günə qədər İranla münasibətləri sabit saxlamağa çalışırdı. Amma son zamanlar cənub qonşumuzun Azərbaycana qarşı informasiya müharibəsi və hərbi təhdid üslubuna əl atması fonunda onların reaksiyalarının bir əhəmiyyəti yoxdur.

Bu baxımdan Azərbaycanın səfirlik məsələsində gözləmə mövqeyini İsrail də anlayışla qarşılayırdı.

Bu gün isə ərazilərimiz işğaldan azad olunub və Qarabağ problemi Azərbaycanın xeyrinə həll olunub. Eyni zamanda ərəb ölkələri ilə İsrail arasında müqavilə imzalanması, siyasi əlaqələrin qurulması fonunda gecikmiş işi yerinə yetirməyin, yəni İsraildə səfirlik açmağımızın önündə maneə qalmır. İsrail Azərbaycanın ən mühüm strateji tərəfdaşıdır. Hər iki ölkə arasında siyasi, iqtisadi və hərbi texniki əməkdaşlıq yüksək səviyyədədir. Azərbaycan İsrailin Cənubi Qafqazda xüsusi rəğbət bəslədiyi ölkədir".

M.Əsədullazadənin sözlərinə görə, ölkəmizin beynəlxalq səviyyədə aktivliyinin daha da artırılması baxımından Albaniya və Keniyada səfirliklərin açılması da kifayət qədər uğurlu addımdır.

Keniya və Albaniya dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin vacib istiqamətlərindən biridir. Səfirliklərin açılmasında isə əsas məqsəd ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Bundan sonra ölkələrimiz arasında siyasi dialoq yüksələn xətlə inkişaf edəcək".

**Şəymən**

# Hələ də sənədsiz evlər çoxdur

## Millət vəkili problemin həllinə çağırır



**Parlamentin ötən gün keçirilən iclasında yenə sənədsiz evlərlə bağlı məsələ qaldırılıb. Deputat Kamran Bayramov deyib ki, xüsusilə, paytaxtda belə evlər çoxluq təşkil edir.**

Parlament üzvü bildirib ki, bu problem Prezident İlham Əliyevin diqqət mərkəzindədir: "2011-ci ildə keçirilən müşavirədə prezident rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə tapşırıq vermişdi. Həmin tarixdən etibarən hökumət tərəfindən bir sıra tədbirlər görülüb. 2015-2019-cu illərdə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna edilmiş dəyişikliklərə əsasən, sənədsiz evlərin qeydiyyatı asanlaşdırılıb. Həmin dəyişikliklərin icrası nəticəsində təxminən 200 minə yaxın fərdi yaşayış evi və mənzil sənədləşdirilib. Bu fəaliyyət davam etdirilməlidir. Hələ də sənədsiz evlər çoxdur. İqtisadiyyat Nazirliyi tərəfindən ölkə üzrə inventarlaşdırılma prosesinə başlanılıb. Təəssüflər ki, bu proses 2019-cu ilə qədər davam edib. Pandemiya səbəbindən müəyyən ləngimələr olub. Ümid edirəm ki, bu proses davam etdiriləcək. Sənədsiz evlərin sənədləşdirilməsi bir çox problemlərin həllinə kömək edə bilər. Bu, daşınmaz əmlak bazarını canlandırar".

**İsmayıl**

# Hər iki ölkə ilə münasibətlər normaldır

## Azərbaycan İsrail və Fələstinlə münasibətdə balansı saxlayır



**Azərbaycan İsraildə səfirlik açır. "Şərq"in xəbərinə görə, bununla bağlı məsələ parlamentin dünən keçirilən iclasının gündəliyinə daxil edilib.**

Toplantıda deputatlar "Azərbaycan Respublikasının İsrail dövlətində (Təl-Əviv şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsini müzakirə edəcəklər.

Qeyd edək ki, Azərbaycan həm də Fələstində diplomatik nümayəndəlik açır.

Toplantıda deputatlar "Azərbaycan Respublikasının Fələstin dövlətində (Ramallah şəhərində) Təmsilçilik Ofisinin təsis edilməsi haqqında" qanun layihəsini müzakirə edəcəklər.

**Məsələni "Şərq"ə şərh edən analitik Aqşin Kərimovun sözlərinə görə, çox adam elə bilir ki, Azərbaycan Fələstin-İsrail münaqişəsində ikincinin mövqeyini dəstəkləyir. Azərbaycan isə nə faktiki, nə hüquqi, nə də siyasi cəhətdən İsraili dəstəkləyir:** "Azərbaycan münaqişənin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllində maraqlıdır. Azərbaycanın həm İsraildə səfirlik açılması, həm də Fələstində nümayəndəlik təsis edilməsi qərarı da həmin balansı saxlamaqdır. Bununla belə İsrail Azərbaycana heç zaman Fələstin məsələsinə görə etiraz etməyib, çünki bu mövqe Bakı-Təl-Əviv tərəfdaşlığına xələl gətirmir. Digər tərəfdən Fələstin Azərbaycandan əməli dəstəklər də gözləmir, sadəcə, siyasi dəstək ona bəs edir. Azərbaycanın Fələstinlə də münasibətləri normal axındadır!".

**Sücayət Mehti**



# Həbs dalğası genişlənir

## Ermənistan ordusu korrupsiyaya bulaşıb

**"Vətən müharibəsindən sonra Ermənistan ordusuna elə bir zərbə vuruldu ki, düşmən ölkə yaxın on ildə özünə gələ bilməyəcək".**

*Bunu "Şərq"ə "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli Ermənistanda dörd hərbçinin saxlanılmasına münasibət bildirərkən deyib. O qeyd edib ki, düşmən ordusunun silah-sursatları ələ keçirilib, hazırda Hərbi Qənimətlər parkında nümayiş etdirilir:* "Eyni zamanda qarşı tərəfin iqtisadiyyatı da ağır durumdadır. Ölkənin silahlı qüvvələrinin mənəvi-psixoloji vəziyyəti də əsasdır. Özlərini qəhrəman ordu kimi təqdim etməyə çalışdılar, lakin yaratmaq istədikləri obraz alt-üst oldu. Ermənistan ordusunda xidmət edən zabit, gizir şəxsi heyətinin mənəviyyatı sıfır səviyyədədir. Erməni xalqı torpaqları ölkələrinin silahlı qüvvələrinin hesabına alındığını düşünürdülər. Lakin çox qısa zamanda öz yalanlarının fərqinə varıb, sadəcə nağıl olduğunu gördülər. Azərbaycan Ordusunun gücünə bələd oldular. Belə olduğu halda, mənən sınmış zabit, gizir heyəti öz tabeliyindəki əsgərləri döyüşə necə hazırlayacaq?! Bu, mümkünsüzdür. Hər səhvlərində "dəmir yumruq" başlarına dəyir. Ermənistan ordusunda korrupsiya hallarının aşkarlanması da adi hala çevrilib. Ermənistanın Baş naziri Nikol Paşinyanın müxtəlif vədlər verməsinə rəğmən, hərbi vəziyyət düzəlməyəcək. Baş nazir hərbçilərə mənzil, əmək haqqı artımı kimi sözlər versə də, düşmən ölkədə hərbi məktəblərə qəbul sayı xeyli azalıb. Artıq zabit olmaq istəyən yoxdur. Çünki məhvə doğru getdiklərini bilirlər".

E.Həsənli diqqətə çatdırıb ki, düşüncə sahibi olan kəs Ermənistan ordusunda xidmət etməz: "Məlumdur ki, qarşı tərəf hər hansı ölkə ilə müharibə aparmaq iqtidarında deyil. Özlərinə təskinlik üçün yaratdıqları ordu sadəcə korrupsiya mənbəyi güdür. Azərbaycanla Ermənistanın ordusu isə müqayisəedilməzdir. İkinci Qarabağ savaşı da göstərdi ki, Azərbaycanın Silahlı Qüvvələri güclüdür. Xalqımız da ordunu hər zaman dəstəkləyir. Müharibə dövründə də hamı qələbə istəyirdi. Ermənistanda isə xalqla ordu arasında uçurum var. Rəhbərlik tez-tez dəyişir. Ölkə problemlər məngənəsində boğulur. Azərbaycan Ordusunun Şuşada keçirdiyi əməliyyat, Vətən müharibəsində qazanılan uğurlar, müasir silahlardan istifadə edilməsi Amerika, Böyük Britaniya və dünyanın ən aparıcı akademiyalarında təhlil edilir. Rusiya-Ukrayna müharibəsində də rəsmi Kiyevin bu təcrübədən nə qədər yararlandığına şahid oluruq".

*Qeyd edək ki, Ermənistanda rüşvət almaq və verməkdə təqsirli bilinən dörd hərbçi saxlanılıb. Bu barədə Ermənistan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə Komitəsi xəbər yayıb.*

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi



# Kənd təsərrüfatının inkişafı prioritet sahəyə çevrilir

## Mənfəət vergisindən azad edilən fermer istehsaldan, satışdan əldə etdiyi gəliri - vəsaiti özü istədiyi təyinat üzrə xərcləyəcək

**Azərbaycanda aqrar sahədə satışdankənar gəlirlərin və subsidiyaların vergidən azad olunması təklif edilir. Bu, dövlətin kənd təsərrüfatının, aqrar sektorun inkişafına diqqətlə yanaşdığının, dünyada baş verən prosesləri nəzərə alaraq, ərzaq qıtlığı, ərzaq təhlükəsizliyi kimi qlobal məsələlərin həllini asanlaşdırmağa, ölkəmizin idxaldan asılılığını azaltmağa, yerli istehsalı stimullaşdıraraq, göstəriciləri yüksəltməyə yönəlmiş addımlardan biridir.**

Bu məqsədlə Vergi Məcəlləsinə dəyişikliklər ediləcək. Təkliflər bundan ibarətdir ki, Azərbaycanda aqrar sahədə fəaliyyət göstərən fiziki şəxslərin növbəti ildən satışdankənar gəlirləri və onlara ödənilən subsidiyaları gəlir vergisindən azad edilsin. Bununla bağlı Vergi Məcəlləsinə dəyişiklik layihəsi Milli Məclisdə müzakirəyə çıxarılıb. Dəyişikliyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirlərinin, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar gəlir vergisindən azad olunur. Bundan başqa, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirlərinin, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar hüquqi şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyaların 2023-cü il yanvarın 1-dən 1 il müddətinə mənfəət vergisindən azad edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan fiziki şəxslərin bu sahə üzrə dividend gəlirlərinin 2023-cü il yanvarın 1-dən 1 il müddətinə gəlir vergisindən azad edilməsi təklif olunur. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Müzakirələr zamanı millət vəkili Azər Badamov vergi güzəştlərinin uzunmüddətli olmasını təklif edib. ”Azərbaycanda kənd təsərrüfatı sahəsi ilə bağlı vergi təşviqləri 1 illik nəzərdə tutulub, təklif edirəm ki, 3 illik olsun”, söyləyən millət vəkili qeyd edib ki, iqtisadiyyatın elə sahələri var ki, həmin sahələr daima dövlət dəstəyinə ehtiyacı duyur: ”Bu sahələrdən biri də kənd təsərrüfatıdır. Vergi məcəlləsinə təklif olunan əlavə və dəyişikliklərdə təşviqlər 1 illikdir. Amma yaxın vaxtlarda ərzaq təhlükəsizliyi ilə bağlı müsbət proqnozlar yoxdur. Ona görə də, təşviqlərin 3 illik olmasını təklif edirəm”.

Mütəxəssislərin fikrincə, son illər dünya bazarında neftin qiymətinin stabil olmaması və azalan xətt üzrə inkişafı fonunda istər büdcə daxilolmalarının yerinə yetirilməsi, istərsə də ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ölkədə qeyri-neft sektorunun inkişafına daha çox önəm verilir. Bu sektorda diqqət mərkəzində olan sahələrdən biri də aqrar sahədir. Bazar iqtisadiyyatı prinsipləri əsasında öz milli iqtisadiyyatını inkişaf etdirən Azərbaycan üçün aqrar sahənin mümkün potensialından tam mənada istifadə edilməsi ”Gələcəyə baxış - İnkişaf Konsepsiyası” üçün ən aktual mövzulardan birinə çevrilib. Aqrar sektorun inkişafına göstərilən dövlət qayğısı çoxşaxəlidir. Yüksək məhsuldarlığın təmin edilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi, fermerlərə dövlət dəstəyinin daha səmərəli təşkili aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətlərini təşkil edir. Respublikamızda aqrar sektorun inkişafına göstərilən dövlət dəstəyi sayəsində bölgələrdə dövlət vəsaiti hesabına kənd təsərrüfatı üçün lazımi infrastruktur yaradılır, bu sahəyə investisiyalar yönəldilir. ”Aqrolizinq” ASC-nin fəaliyyəti dövlət tərəfindən dəstəklənir. Sahibkarlığa Kömək Milli Fondunun kredit portfelinin 65-70 faizi kənd təsərrüfatı istehsalına və kənd təsərrüfatı məhsullarının emalı sahələrinə yönəldilir. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün növ vergi ödənişlərindən azaddırlar. Müasir meliorasiya, irriqasiya sistemləri dövlət investisiyaları hesabına qurulur. Mineral gübrələrin dəyərinin 50 faizdən çoxu, texnikanın dəyərinin 40 faizi dövlət büdcəsinin vəsaitləri hesabına kompensasiya olunur. Mineral gübrələrin satış qiymətinə tətbiq edilən güzəştin həcmi 50 faizdən 70 faizə yüksəldilib. Ölkəmizdə hər il təqribən 600 min kənd təsərrüfatı məhsulları istehsalçısı dövlət dəstəyindən bəhrələnir. Davamlı və hərtərəfli dövlət dəstəyi sayəsində ölkəmizdə kənd təsərrüfatında əhəmiyyətli artıma nail olunub. Artıq kənd təsərrüfatında inkişaf göstəriciləri elə bir həddədir ki, Azərbaycan bu sahə üzrə əksər məhsulları, o cümlədən taxıla olan tələbatı yerli istehsal hesabına tam ödəməkdədir. Ərzaq təhlükəsizliyi baxımından isə bu, olduqca mühüm nailiyyət hesab edilir. Fermerlərə tətbiq ediləcək yeni güzəştlər aqrar sahədə hansı üstünlüklərə səbəb olacaq?

***Fuad İbrahimov: "Fundamental quruculuq üçün 1 il də azdır, hətta 3 il də. Uzun vədəli güzəştlər tətbiq edilməlidir ki, fermerlərin marağına səbəb olsun və aqrar sektorda hiss ediləcək müsbət dəyişikliklər baş versin"***

**İqtisadçı Fuad İbrahimov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, mənfəət vergisindən azad edilmə istənilən halda fermer, sahibkar üçün əlverişlidir:**

- Mənfəət vergisindən azad edilən fermer istehsaldan, satışdan əldə etdiyi gəliri - vəsaiti özü istədiyi təyinat üzrə xərcləyəcək. Onu başqa bir sahəyə yönəldə bilər, yaxud gəlirgətirən sahəni daha da inkişaf etdirib, növbəti məhsul ilində daha çox məhsuldarlıq əldə edə bilər. Dövlət fermerə müəyyən qədər şərait yaradır ki, təsərrüfatını genişləndirə bilsin. Lakin burada diqqət edilməsi gərəkən mühüm amil var. Bu da vergi institutunun hansı dərəcədə formalaşmasıdır. Vergi siyasəti şəffaf olmalıdır. Vergi güzəştləri sağlam vergi sistemlərində effektiv olur. Müsbət nəticələr o zaman əldə edilir. Tutalım, bir fermerin 1000 ton taxılı var. Bunun uçotu necə aparılır? Belə bir uçot aparan təşkilat yoxdur hələ ki. Bu taxılın nə qədər hissəsi və hansı məqsədlər üçün yararlıdır, bunlar hamısı dəqiq bilinməlidir ki, fermerin əldə edəcəyi mənfəət gəliri də bəlli olsun. Və sonra da bu gəlirdən necə istifadə edildiyi bilinsin. Nəzəri cəhətdən hər şey mümkündür. Amma tətbiq məsələsində çətinliklər ortaya çıxır. Çünki əvvəlcə vergi sisteminin şəffaflığı təmin edilməlidir.

*F.İbrahimov gəlir vergisindən azadedilmə müddətinin uzadılması təklifi ilə razı olduğunu bildirdi:*

- Mən millət vəkilinin təklifini ikiəlli dəstəkləyirəm və hətta bildirirəm ki, 3 il də azdır. Bu müddət ən azı 3 ildən 5 ilə qədər olmalıdır ki, cazibədarlıq artsın və effektiv nəticə əldə edilsin. Fundamental quruculuq üçün 1 il də azdır, hətta 3 il də. Uzun vədəli güzəştlər tətbiq edilməlidir ki, fermerlərin marağına səbəb olsun və aqrar sektorda hiss ediləcək müsbət dəyişikliklər baş versin.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Tərəzi səhv işləyir, qiymət də baha...

## Yarmarkaları nazirlik yox, icra hakimiyyətləri təşkil etməlidir

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 19 -20 noyabr tarixlərində ”Kənddən Şəhərə” həftəsonu yarmarkaları təşkil olunacaq.**

Nazirlikdən ”Şərq” ə verilən məlumata görə, Bakı və Abşeron ərazisində keçiriləcək yarmarkaların təşkilində əsas məqsəd fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini yerli, təbii və mövsümi kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir. Yarmarkalarda məhsullar birbaşa fermerlər tərəfindən satışa çıxarılacaq.

Budəfəki ”Kənddən Şəhərə” həftəsonu yarmarkalarında ümumilikdə 80-ə yaxın fermer 50-ə yaxın regionu təmsil edəcək. Fermerlər 90-a yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar.

Fermerlər yarmarkalarda tamamilə ödənişsiz şəkildə iştirak edəcəklər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstərilərək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvanlara daşınacaq.

Yarmarkalarda satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

*”Kənddən şəhərə” həftəsonu yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:*

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (”Gənclik” metro stansiyasının çıxışı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

**Satışa çıxarılan hər məhsulun keyfiyyətinin önəminə diqqət çəkən iqtisadçı-ekspert Vahid Məhərrəmovun fikrincə, keyfiyyətlə bağlı konkret standartlar təyin edilməlidir. Keyfiyyət əsl alıcılıq qabiliyyətini müəyyənləşdirir:** ”Keçmişdə kifayət qədər avadanlığın, texnoloji inkişafın olmaması üzündən məhsulları sağlam yetişdirmək olduqca çətin idi. Ancaq indiki şərait imkan verir ki, sağlam, təbii, uzunömürlü, hər cəhətdən keyfiyyətli məhsullar becərilsin və toplanılıb satışa çıxarılsın. Ancaq nə üçünsə bu cür yarmarkalarda içi çürük məhsulların satışı müşahidə edilir”.



***"Kənddən Şəhərə" yarmarkaları effektli təşkil olunsaydı alıcıların maraqları baxımından çox cəlbedici ola bilərdi"***

Ekspertin sözlərinə görə, yarmarkaları KTN yox, icra hakimiyyəti orqanları təşkil etməlidirlər: ”Nazirlik bu cür mövsümi işlərlə məşğul olmamalıdır. Hazırda onlar iş görüntüsü yaratmaq üçün yarmarkarların təşkilini həyata keçirirlər. Ancaq dünyada yarmarkaları icra hakimiyyəti və bələdiyyə orqanları təşkil edir, bu məsələdən qaynaqlanan problemləri də onlar həll edirlər. Kənd Təsərrüfatı Nazirliyi kəndlinin problemlərinin həlli ilə məşğul olmalıdır. Yarmarkaların təşkili stimul xarakteri daşısa da, ancaq bir çox hallarda kəndli fermerlərin əsas problemləri kölgədə qalır və ya həll edilmir”.

İqtisadçı hesab edir ki, ”Kənddən Şəhərə” yarmarkaları effektli təşkil olunsaydı alıcıların maraqları baxımından çox cəlbedici ola bilərdi. Amma əksər vətəndaşlar tərəzilərin düz işləməməsi, artıq qiymətdən narazıdır. Bir çox ölkələrdə yarmarkalar görmüşəm. Bu, əhalinin razı qaldığı bir yarmarka olur, lakin Azərbaycanda bunun istehlakçıları qane etməyən bir variantda təşkil edilir.

V.Məhərrəmovun sözlərinə görə, bir çox inkişaf etmiş ölkələrdə fermer bazara və ya yarmarkaya çıxıb satış etmir. O, əkin sahəsində daha məhsuldar işləməlidir. Buna görə də fermerə əsas stimul verəcək məsələ onun əməyinin doğru dəyərlə qiymətləndirilməsidir. Yarmarkalara isə onların istehsal etdiklərini çıxaracaq müəyyən edilmiş nümayəndələr olmalıdır. Kəndlidən ədalətli qiymətə alınan məhsul yarmarkada istehlakçıya uyğun qiymətə satılmalıdır. Onu da deyim ki, yarmarkalarda satılan məhsullar bir çox hallarda fermerlərdən ziyanına alınan mallardır. Fermerlər istehsal etdikləri məhsulları qalıb çürüməsin deyə, bir növ onlardan qurtulmaq üçün dəyər-dəyməzinə möhtəkirlərə satmağa məcbur olur. Həmin məhsullar da yarmarkalarda satışa çıxarılır. Bu isə stimul yaratmaq əvəzinə kəndlini gördüyü işdən küsdürür”.

**Kənd təsərrüfatı yarmarkalarının təşkili ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-ekspert Rauf Qarayev isə bu layihənin müsbət hal olduğunu, lakin bəzi məsələlərə diqqət edilməsinin vacibliyini vurğulayıb:** ”Kənddən Şəhərə” yarmarkalarının keçirilməsində əsas məqsəd paytaxtda kənd təsərrüfatı məhsullarının bolluğunu yaratmaq və qiymətlərin ucuzlaşmasına nail olmaqdır. Bundan əlavə, yarmarka təşkilatçılarının əsas vəzifəsi məhsulun satışının fermerin özünün təşkil etməsinə çalışmaqdır. Yarmarkanın əsas qayəsi budur ki, yarmarkalarda sahibkarlar, fermerlər piştaxta arxasında dayansın, alverçilər yox.

Yarmarkaların müsbət tərəflərindən biri də budur ki, fermerlər üçün tamamilə ödənişsiz şəkildə təşkil olunacaq. Yəni yarmarkada iştirak edəcək fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi və digər avadanlıqlarla təmin olunurlar. Hətta məhsullarını yarmarka ünvanlarına çatdırmaqda çətinlik çəkən fermerlərə logistik dəstəyin də göstərilməsi pis olmazdı”.

İqtisadçının fikrincə, bu cür yarmarkalarda dəllalların, məhsulları fermerlərdən ucuz qiymətə alıb Bakıda baha qiymətə satan alverçilərin iştirakına icazə verilməməlidir: ”Hər kəndli iri şəhərlərin bazarlarına çıxmaq, öz yetişdirdiyi məhsulun satışını təşkil etmək iqtidarında olmadığı üçün alverçilər bundan istifadə edir. Halbuki, kəndli becərdiyi məhsulu özü yarmarkaya gətirib satışa çıxarsa tutarlı qazanc əldə edər. Zəhmətinin bəhrəsini həm özü görər, həm də vətəndaşlar ucuz və keyfiyyətli məhsul əldə edər. Kəndli əziyyət çəkərək əkib-becərdiyi məhsulun satışını özü etməlidir. Bu, kəndliyə - fermerə qazanc əldə etmək, becərdiyi məhsuldan gəlir götürmək imkanı yaradır, məhsul becərməyə həvəsini, həm də marağını artırır, əlavə stimul verir”.

R.Qarayevin sözlərinə görə, kənd təsərrüfatı məhsullarının rayonlarda ucuz, Bakıda baha olmasının əsas səbəbi də məhz sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanların əməlidir. Kəndli nə qədər çox əziyyət çəksə də, məhsulu əhali üçün əlçatan qiymətə satır. İşbazlar, alverçilər isə daha çox qazanmaq üçün insanların ”cib”inə, kəndlilərin haqqına girir.

*İqtisadçı onu da deyib ki, kənar şəxslərin bu cür yarmarkalara müdaxiləsinə məhz Kənd Təsərrüfatı Nazirliyi tərəfindən nəzarət olunmalıdır.*

Bu cür yarmarkaların təkcə paytaxtda deyil, digər şəhər mərkəzlərində də təşkil edildiyini vurğulayan ekspert qeyd edib ki, bəzi sahibkarlar erkəndən bazarda öz yerini tutur ki, fermerlərin gətirdiyi məhsulların hamısını ucuz qiymətə alıb, gün ərzində bazarlıq edən alıcılara daha baha qiymətə satsınlar: ”Çünki kəndlərdən şəhər bazarlarına məhsul gətirən şəxslərin axşama qədər piştaxta arxasında dayanıb məhsullarını satmaq imkanı olmur. Onlar 2-3 saat ərzində gətirdikləri məhsulu satıb qayıtmağa çalışır. Ona görə də bəzi hallarda fermerlər gətirdikləri məhsulu bir əldən başqa birisinə satıb rayona, kəndə qayıdır. Belədə yarmarkanın mahiyyəti pozulmuş olur. Məhsul ikinci, üçüncü ələ keçir. Qiymət də artır. Bu mənada yarmarkaların təşkili zamanı qarşıya qoyulan məqsədə nail olunması üçün fermerlərə hərtərəfli şərait yaradılmasının tərəfdarıyam”.

**Şəymən**

# Azərbaycan rusiyalı turistlər üçün hər zaman maraqlı ölkə olub

## "Turizm sektoru yeniliklərə hazır olmalıdır, çeşidli təkliflər irəli sürülməlidir"

**Noyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə geniş tərkibdə görüşü olub. İki ölkə arasındakı qarşılıqlı fəaliyyətə dair mühüm məsələlərin geniş spektrdə müzakirəsi aparılıb.**

Ölkə başçısı deyib ki, qarşılıqlı ticarətin həcmi pandemiyadan əvvəlki səviyyəyə çatır: "Əminəm ki, bu dinamizm qorunub saxlanacaq. Ona görə ki, bu gün, o cümlədən sizin səfəriniz çərçivəsində müzakirələr qarşılıqlı ticarət potensialını artırmağa şərait yaradacaq.Sizin səfəriniz ərəfəsində mən bəzi statistik məlumatlara baxmışam. Sevindim ki, aviareyslərin sayı sürətlə artır. Həftədə 130-dan çox reys var, yəni biz praktiki olaraq ən yüksək göstəriciyə nail olmuşuq və Rusiyadan turist axını da artır. Bu il təqribən 80 faiz artım olub. Əlbəttə, pandemiya ilə əlaqədar bu göstərici azalmışdı. Biz hələ pandemiyadan əvvəlki səviyyəyə çatmamışıq, lakin fikrimcə, çatacağıq. Ölkələrimiz arasında sıx dostluq əlaqələrini, bu il Müttəfiqlik Qarşılıqlı



Fəaliyyəti barədə Bəyannamə imzalanması və il ərzində münasibətlərimizin müttəfiqlik xarakterini dəfələrlə nümayiş etdirməyimizi, iqtisadi-ticari əməkdaşlığın gündəliyini xeyli genişləndirmək niyyətində olmağımızı nəzərə alaraq, düşünürəm ki, reyslərin sayı da artacaq".

**İqtisadçı-ekspert Elçin Əliyev isə turizm sahəsində yenilik və dəyişikliklərin sürətlə baş verdiyini deyib. Onun sözlərinə görə, dünyada gedən bütün proseslər bu sahəyə öz təsirini dərhal göstərir:** "Düzdür, bütün böhranlar yeni imkanlardır. Bu mənada regionda baş verən müharibə turizmə də öz təsirini göstərəcək. Ona görə də hazırkı vəziyyətdə turizm sektoru yeniliklərə hazır olmalıdır. Çeşidli təkliflər irəli sürülməlidir.

Turizm sektoru inkişaf etmiş bir çox yerlərdə əsas təsiredici amil Rusiya turistləridir. Rus turistlərinin bu ölkələrə getməsi həmin yerlərdə dayanıqlı turizm infrastrukturunun qurulmasında önəmli rol oynayıb".

İqtisadçının sözlərinə görə, Azərbaycan-Rusiya turizm münasibətləri artıq inkişaf dövrünü yaşayır: "Statistika da göstərir ki, ölkəmizə gələn turistlər arasında ruslar hər zaman üstünlük təşkil edib. Bu, illər öncə də belə idi, indi də. Eynilə yerli vətəndaşlar Rusiyaya səyahət etməkdə hər zaman maraqlı olublar. Rusiya vətəndaşlarının ölkəmizə maraq göstərməsi səbəblərindən biri Azərbaycanın təbiəti və buradakı sabitlikdir. Ümumiyyətlə, Azərbaycan rusiyalı turistlər üçün hər zaman maraqlı ölkə olub. Bu səbəbdən Rusiyadan Azərbaycana turist axınının artması gözləniləndir. Rusiyanın turizm şirkətləri üçün Azərbaycan çox əlverişli destinasiyadır. Azərbaycanda məhbəx turizmi, istirahət turları rusiyalı turistlərin marağına səbəb olur. Bu sahələr üzrə turistlərin qəbulu üçün ölkəmizdə bütün şərait var. Məhz bu səbəbdən də Azərbaycana çoxsaylı rusiyalı turistlərin gəlməsi təəccüblü deyil. Rusiyalı turistlər ən çox Naftalan, Qalaaltı kimi sağlamlıq turizminə axın edir. Pandemiyadan əvvəl də termal turizm növü üzrə Rusiyadan Azərbaycana çoxlu sayda qonaq gəlib. Həmçinin Bakı və Abşerona səyahətlərə, şərab marşrutlarına da Rusiyadan gələn turistlər maraq göstərirlər".

**Şəymən**



### İşlək dərmanların qıtlığı yaranıb

Professor hesab edir ki, preparatların ölkəmizdə istehsalına başlamaq lazımdır

**Milli Məclisin iclasında 2023-cü ilin dövlət büdcə layihəsinin müzakirəsi zamanı parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov dərman vasitələrinə diqqət çəkib.**

O bildirib ki, Azərbaycanda əhali arasında dərman vasitələri ilə bağlı böyük narahatlıqlar var". Ə.Əmiraslanov qeyd edib ki, Azərbaycan hökuməti dərman vasitələri ilə bağlı yeni proqram hazırlayır.

**Məsələyə münasibət bildirən tibb elmləri doktoru, professor Adil Qeybulla "Şərq"ə bildirib ki, dərman təhlükəsizliyi milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi olmalıdır:** "Ona görə də proqramın əsas qayəsi, bu prinsipi nəzərə almalıdır. Digər tərəfdən Azərbaycanda dərmanın idxalı və gələcəkdə daxili istehsala keçməsi ilə bağlı məsələlər də qanunda öz əksini tapmalıdır. Dərmanların ölkəyə idxalının fasiləsiz davamı üçün də məqam var. Çünki dünya dəyişir. Rusiya-Ukrayna müharibəsi isə bizim tibbi ləvazimatlar aldığımız ölkələrin dərman sənayesinə xeyli zərbə vurub. Azərbaycanda işlək dərmanların defisiti yaranıb. Bunların olmaması üçün isə əməkdaşlıq etdiyimiz dövlətlərin həm resursu olmalıdır, həm də lazım olsa başqa mənbələrə keçməliyik. Burada qardaş Türkiyə yaxındadır və onunla əməkdaşlıq intensivləşməlidir. Düzdür, əvvəllər ruslar bu əlaqələrin qurulmasına maneçilik törədirdilər.

Amma indi bizə geniş imkanlar yaranıb və bundan yararlanmalıyıq. Ümumiyyətlə, tədricən daxili istehsala keçməliyik. Yəni dünyanın aparıcı şirkətləri ilə müştərək firmalar quraraq, ölkənin bütün imkanlarını səfərbər edib dərmanları ölkəmizin daxilində istehsal etməliyik. Biz ilk formada dərman preparatlarını başqa ölkədən alıb burada qablaşdıra bilərik. Bu məsələ mərhələli şəkildə həyata keçirilməlidir. Bununla da dərman maddələri xeyli əlçatan olar və daxili istehsalımız formalaşar.

O ki qaldı dərmanların ümumi qiyməti məsələsinə, hesab edirəm ki, icbari tibbi sığorta çərçivəsində tətbiq olunan preparatlar pulsuz verilməlidir. Ambulator yazılan dərman maddələrində isə müəyyən datasiya tətbiq edilə bilər".

**Nihat Müzəffər**

"Muğanbank" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Elmir Mehdiyevə atası
**Maqbet Mehdiyevin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verir, doğmalarına və əzizlərinə səbr diləyirlər.
*"Muğanbank" ASC-nin kollektivi*
**Allah rəhmət eləsin!**

**Elan**

Məmmədov Toğrul Məzahir oğlunun adına Nəsimi rayonu, Azər Rost MTK, Ənvər Hüseynov 6 A, 11 nömrəli qaraja aid müqavilə itdiyi üçün etibarsız sayılır.



### FHN heyvandarlıq fəaliyyəti ilə məşğul olanlara müraciət edib

Nazirlik yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyə çağırır

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti (Xidmət) səlahiyyətlərinə uyğun olaraq, ölkədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir.**

FHN-dən verilən məlumata görə, bu çərçivədə, Xidmət tərəfindən yanğın təhlükəsizliyi qaydaları ilə əlaqədar aparılan kütləvi maarifləndirmə işlərinə baxmayaraq, heyvandarlıqla məşğul olan vətəndaşlar tərəfindən qış mövsümü üçün tədarük edilən və tez alışma xassəsinə malik quru otun yaşayış evləri və yardımçı tikililərin çardağına, eləcə də tikililərin bilavasitə yaxınlığına, hava elektrik xətlərinin altına və digər yanğın təhlükəli ərazilərə yığılması hallarına yenə də tez-tez rast gəlinir. Bununla da yanğın təhlükəsizliyi qaydalarının tələbləri kobud şəkildə pozulur ki, nəticədə ağır fəsadlara səbəb olan yanğın hadisələri baş verir. Belə ki, sobaların tüstü bacasından çıxan ani qığılcım, elektrik naqillərində baş verən qısaqapanma, odla ehtiyatsız davranma və digər səbəblər ot tayasının asanlıqla yanmasına və qısa müddətdə genişlənərək böyük faciələrə gətirib çıxarır.

*Qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi bir daha heyvandarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlara müraciət edərək yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyə çağırır. Xüsusilə nəzərə alınmalıdır ki, mövcud normalara əsasən, qaba yemlərin toplanması zamanı ot tayası ilə tikililər arasında ən azı 50 metr, elektrik xətləri ilə 15 metr, avtomobil yolları ilə 20 metr ara məsafəsi gözlənilməlidir.*

# Məhkəmə prosesi davam etdirilib

## Rasim Məmmədovun Aygün Kazımovadan aldığı evə həbs qoyulub

**"Baku Steel Company"nin keçmiş rəhbəri Rasim Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. APA-nın xəbərinə görə, dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Əsgərova-Məmmədovanın sədrliyi ilə keçirilən iclasda sənədlər elan olunub.**



İş üzrə sənədlərin tədqiqi zamanı prosesə sədrlik edən hakim üzərinə həbs qoyulmuş 70 milyonluq əmlakların tam siyahısı və orta bazar qiymətlərinin elan edib.

Üzərinə həbs qoyulmuş əmlaklardan biri Səbail rayonu, Badamdar qəsəbəsində yerləşən Bakı Oksford Məktəbidir. Bazar dəyəri 22 milyon 487 min 150 manat qiymətləndirilmiş məktəbin həmtəsisçisi Rasim Məmmədovun həyat yoldaşı Mehriban Məmmədovadır.

Sumqayıt şəhəri, "Kimyaçılar" qəsəbəsində yerləşən şirkətin avadanlıqları və torpaq sahəsinin qiyməti isə 30 milyon 800 min manat təşkil edib.

Rasim Məmmədova məxsus digər əmlaklara isə Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən 550 min manatlıq iki bağ evi, Sabunçu rayonunda yerləşən 120 min manatlıq iki mağaza, Yasamal rayonu, Şərifzadə küçəsində 2 milyonluq qeyri-yaşayış sahəsi daxildir. Həmçinin təqsirləndirilən şəxsin yaxınlarına məxsus bir neçə əmlakın da üzərinə həbs qoyulub.

Əmlaklarla bağlı sənədlərə baxış zamanı Rasim Məmmədov həbs qoyulmuş Bakı Oksford Məktəbinin 50 faizinin onlara, digər hissəsinin isə adını çəkmək istəmədiyi başqa şəxsə aid olduğunu deyib. O, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsində yerləşən mənzilin isə qayınatasından miras qaldığını bildirib. Rasim Məmmədov həbs qoyulmuş Nəsimi rayonunda, "Təzə bazar"ın yaxınlığında yerləşən iki evdən birini Xalq artisti Aygün Kazımovadan aldığını deyib: "Evi Aygün Kazımovadan 2009-cu ildə almışam. Həmin binada nazirdən tutmuş, müğənniyə qədər yaşayanlar var idi".

İttiham olunan şəxsin vəkili Zibeydə Sadıqova və Pərviz Məmmədov isə müvəkkilləri ilə yanaşı bir sıra şəxslərin də əmlakları üzərinə həbs qoyulmasının əsassız olduğunu deyiblər.

"Həmin əmlakların cinayət yolu ilə əldə olunmasına dəlalət edən heç bir sübut ortaya qoyulmayıb", vəkillər əlavə edib.

Poses noyabrın 21-də davam etdiriləcək.

*Xatırladaq ki, "Baku Steel Company"nin rəhbəri olmuş Rasim Məmmədov Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən həbs olunub. O, Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə və ya israfetmə, xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 193.3.2 (xüsusilə külli miqdarda gəlir əldə etməklə yalan sahibkarlıq), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur. Cinayət işi üzrə dəymiş ziyan 185 milyon manat hesablanıb.*

# "Titanik"dən sağ çıxanlar

## Tale onların ikisini də tenisdə bir araya gətirdi

*(Əvvəli səh: 8-də)*

**Gəmi batsa belə, boğulmazdılar. Bununla belə, çox vacib bir məqamı əldən verdilər. Uzun müddət 0 dərəcədən aşağı suda qalaraq yaşayacağı hipotermiya (bədən istiliyinin 34,4 dərəcə selsidən aşağı düşməsi) gənc tennisçinin həyatını dəyişəcəkdi.**



Richard Norris Uilyams və Çarlz Uilyams gəmi ikiyə bölünənə qədər ayrılmaz qalıblar. Ancaq Çarlz oğlu qədər şanslı deyildi. "Titanik" batarkən ata oğlunu sakitləşdirirdi. O, 30 il əvvəl başqa bir gəmi qəzasından sağ çıxmışdı. Çarlz "Titanik"in əvvəlki qəzasında olduğu kimi 10-15 saat suda qala biləcəyini düşünürdü. Lakin "White Star"ın heç vaxt batmayacağına inandığı gəmi aysberqə çarpdıqdan sonra 2 saat 40 dəqiqə sağ qalıb. "Titanik" həmin gecə yoxa çıxmazdan əvvəl Çarlz aşmış bacanın altında yoxa çıxdı. Riçard indi tək qalmışdı və ayaqlarını suda hiss etmirdi. O, bütün gücü ilə çevrilmiş xilasedici qayığa yaxınlaşdı. Onu xilasedici qayıqdan 4 saat sonra "Titanik" sərnişinlərini xilas etməyə gələn "Karpatiya" gəmisi xilas edib.

Xilas olana qədər nəm paltarla soyuqda qalmaq onun üçün böyük təhlükə idi. Sağ qalanların hamısının gəmidə sağlamlıqları yoxlanılıb. Riçardın növbəsi idi. Lakin gənc tennisçi üçün hər şey yaxşı alınmadı. Ayaqları soyuq suda donmuşdu və uyuşmuşdu. Gəminin həkimi onun ayaqlarının kəsilməsini təkid etsə də, Riçard razılaşmırdı. "Mənə ayaqlarım lazım olacaq" deyə həkimdən imtina edib. Riçard hər saat gəmini o tərəf, bu tərəf gəzməyə çalışırdı. O, məşqlərlə zədəsini aradan qaldırmağa çalışıb. Bu səy onu yaxın günlərdə tennisdə dünyanın ən tanınmış iki adından biri edəcəkdi.

Richard Norris Uilyams "Titanik"dən sağ çıxan yeganə tennisçi deyildi. Karl Howell Behr gəmidən sağ qalan digər tennisçi idi. Qəzadan iki ay sonra Riçard turnirdəki rəqibini məğlub etdi və ABŞ Milli Çempionatından medalla qayıtdı. Riçard Uilyams ilk mühüm qələbəsini qəzadan iki ay sonra Olimpiya qızıl medalına gedən yolda əldə etdi. 1914-cü ildə kortda onunla birlikdə gəmidən xilas edilən Karl Behrlə qarşılaşdı.

Məhz bu turnir zamanı Riçard öyrəndi ki, Behr də onun kimi "Titanik"dən sağ çıxmışdı. Uilyams veteran oyunçu üzərində qələbə qazanaraq daha bir medal qazanıb. 1916-cı ilə qədər o, dünyada tennisdə iki nömrəli ad idi. 1924-cü il Paris Olimpiya Oyunlarında qızıl medal qazandıqda, o, illərdir xatırlanacaq gəmi qəzasından sağ çıxan Olimpiya çempionu idi.

Uilyams və Behr təkcə gəmidə və ya kortda deyil, həyatları boyu bir çox yerdə görüşüblər. Behr 1913-cü ildə Uilyamsın bacısının rəfiqəsi, eyni zamanda onunla birlikdə "Titanik"dən sağ çıxan Helen Monypeny Newsom ilə evlənib. 1949-cu ildə Behr öldükdən sonra Helen tennisçinin başqa bir yaxın rəfiqəsi ilə yenidən evlənir. Riçard Uilyams 2 iyun 1968-ci ildə unudulmaz macəra və nailiyyətlərlə dolu həyatı ilə vidalaşır. O, xatirələrini və nailiyyətlərini "Titanik"lə bağlı unudulmaz xatirələrin yazıldığı "A Night to Remember" kitabının müəllifi Uolter Lorda danışıb. Xatirələr daha sonra məşhur kanadalı rejissor Ceyms Kemeronun filmində əbədiləşdirilib.

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3276



## Bakıda qəribə hadisə

Vətəndaşın mənzilinə qumbara və qərənfil qoyan şəxs saxlanıldı

**Nəsimi rayonunda mənzillərdən birinə 1 ədəd "F-1" markalı qumbara və 1 ədəd qərənfil qoymaqla hədə-qorxu gələn şəxs polis əməkdaşları tərəfindən müəyyən olunub.**

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, hədə-qorxu ilə tələb etmədə şübhəli bilinən Abşeron rayon sakini, əvvəllər məhkum olunan 19 yaşlı Elgün Ocaqverdiyev saxlanılıb. Ondan "F-1" markalı qumbara aşkar olunaraq götürülüb. Araşdırmalar davam etdirilir.

## Sosial şəbəkələrdə gündəm oldu

Baqajda sərnişin daşıyan taksi sürücüsü 861 TL cərimələnib



**Türkiyənin Bursa şəhərinin Osmanqazi rayonunda baqajında sərnişin daşıyan taksi sürücüsü cərimələnib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, dostları ilə getdiyi taksiyə əşyalarını yerləşdirən şəxs qapağı bağlanmayanda baqajda səyahət edib. Əşyalarını baqajda saxlayaraq oradan çıxan şəxsin görüntüləri sosial şəbəkədə paylaşılanda ona reaksiya gəlib.

Polis qrupları taksi sürücüsü D.A-nı "sərnişinləri nəqliyyat vasitəsindən kənara qoymaq" və "baqaj qapısını açıq saxlamaq" cinayətlərinə görə 861 TL cərimələyib.

**Turan**

## Günəş enerjisi ilə işləyən ilk xəstəxana fəaliyyətə başlayıb



**Uelsin cənubundakı Suonsi şəhərində yerləşən Morriston xəstəxanası elektrik enerjisini tam şəkildə günəş enerjisindən alan ilk xəstəxana olub.**

Trend-in məlumatına görə, bu barədə bu gün Uelsin Səhiyyə Xidməti bildirib.

Qeyd olunub ki, xəstəxananın elektrik enerjisi tələbatı günəş batareyaları vasitəsilə təmin olunacaq.

Hesablamalara əsasən, bu hər il 1 milyon funt sterlinqə yaxın vəsaitə qənaət etməyə imkan verəcək.



# "Titanik"dən sağ çıxanlar

## Tale onların ikisini də tenisdə bir araya gətirdi

**Onlar bir-birindən xəbərsiz mindikləri "Titanik"dən sağ qalan 710 şanslı arasında idilər. Tale torunu elə hörüb ki, qəzadan cəmi iki il sonra onlar bu faktdan xəbərsiz tennis meydançasında görüşüblər. Həyatlarının dönüş nöqtəsi olan bu qarşılaşma onları ölənə qədər bir araya gətirib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, 1912-ci ilin 15 aprelində "Titanik"in batması nəticəsində 1514 nəfər həlak olub. Birinci dərəcəli kabinələrdə olan sərnişinlərin sağ qalmaq şansı daha yüksək olub. Lakin bəzi sərnişinlər sağ qalsalar da, əvvəlki sağlamlıqlarını bərpa edə bilməyiblər.

Richard Norris Uilyams da perspektivli gənc tennisçi idi. Əslində, bir çox insanın üçüncü dərəcəli kabinələrdə olsa belə "Titanik"də sərnişin olmaq arzusu yox idi. Uilyams tennisdə özünü təkmilləşdirmək və beynəlxalq turnirlərə qatılmaq üçün Nyu-Yorka getmək və Harvarda yazılmaq istəyirdi. O, uğursuz bir xəstəliyə tutulmasaydı, atası ilə heç vaxt "Titanik"ə minməzdi.

Uilyams 1912-ci ilin fevralında ABŞ-a getməli idi. Ancaq gözlənilmədən qızılcaya tutuldu. Onun xəstəliyi planlaşdırılan səfərin gecikməsinə





səbəb olmuşdu. Buna görə də Riçard atası Çarlz Uilyamsla Nyu-Yorka səfər etmək üçün apreldə ilk səyahətini edəcək "Titanik"in birinci dərəcəli kabinələrindən birinə bilet alıb. Fransanın Çerburq şəhərindən "Titanik"ə mindikdən dörd gün sonra ata və oğul kapitan Edvard Smitlə şam yeməyi yeyib, öz kabinələrinə çəkiliblər. Bu, aprelin 14-nə keçən gecə dünyanın ən dəbdəbəli transatlantik gəmisində sonuncu şam yeməyi olub. Qısa müddət sonra gəmi aysberqə çırpılanda onların hər ikisi yatmışdı. Sarsıntı və səs-küylə oyandıqları zaman 1997-ci ildə çəkilmiş "Titanik" filminin mövzusu olacaq səhnə baş verir. Riçard sıxılmış qapını açmağa çalışan xidmətçini itələyərək qapını sındırıb. Zabit "White Star" şirkətinə şikayət edəcəyini bildirsə də, bu, heç vaxt baş verməyib. İngiltərənin fəxri olan gəmi ikiyə bölünməzdən əvvəl Riçard və Çarlzın hər biri xilasedici jilet tapmışdı.

*(Davamı səh: 7-də)*

**Turan**

## Hirs, qəzəb və depressiya qaraciyər xəstəliyinin əlamətidir

Üstəlik ödün hasili və süzülməsi də pozulur, bu da emosional simptomatikanı daha da gücləndirir



**İnsanın emosional durumu, hissləri, neqativ olması və ağlaması onun qaraciyərinin normal işləmədiyini göstərir.**

**"Medicina" xəbər verir ki, qastroenteroloq Valeriya Lomova stress və depressiyada olan insanlara qaraciyərini yoxlatmağı tövsiyə edib.**

**"Qaraciyər xəstəliyi və ya toksinləşməsi zamanı qanda toksin və zərərli maddələrin miqdarı artır, bu da qanla bütün orqanlara daşınır, nəticədə beyin, qalxanvari vəz neqativ işləyir.**

**Üstəlik ödün hasili və süzülməsi də pozulur, bu da emosional simptomatikanı daha da gücləndirir.**

**Qaraciyərin normal işləmədiyini göstərən siqnallardan biri də emosinal durumun pisləşməsidir. Bu o deməkdir ki, qaraciyər ammiak qalıqlarını bədəndən çıxarmır, bu toksin baş beyinə təsir edir.**

**Emosional dözümsüzlük, tez qıcıqlanmaq, ağlamaq, həyata küskünlük, qəzəb, kin, apatiya, yuxusuzluq qaraciyərdən ola bilər.**

***Digər simptomlar:***

- **Bədənin hərarətinin davamlı 37 olması**
- **Çəkinin itirilməsi**
- **Sidik və nəcisin rənginin dəyişməsi**
- **Dəridə qaşınma**
- **Allergiya**
- **Ağızda acı dad**
- **Bədəndə şişkinlik**
- **Gözün üstündə piy düyünlərinin olması**



# Alimdən maraqlı açıqlama

## Yadplanetlilərlə ünsiyyət qura bilməməyimizlə bağlı 3 ehtimal var



**"Dünyamız xaricində başqa dünyalar, başqa varlıqlar da varmı", sualı tarixən bəşəriyyəti düşündürüb, bu mövzuda hətta bir sıra filmlər də çəkilib, sənədli filmlər araya gəlib, lakin bu suala hələ də dəqiq bir cavab tapılmayıb. Bu məsələ üzərində ən çox düşünən və real faktlar əldə etməyə çalışansa, təbii ki, alimlərdir.**

**"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, dünyada ən çox izlənən "Cosmos: A Spacetime Odyssey" adlı bəlgəsəlin səsləndiricisi, məşhur astrofizik Neil deGrasse Tyson yadplanetlilərlə ünsiyyət qura bilməməyimizlə bağlı 3 ehtimal irəli sürüb.**

Astrofizik bildirir ki, kainatın yaşının 13.5-14 milyard il olduğu nəzərə alınarsa, yaşadığımız dünyadan kənarda başqa dünyaların, başqa varlıqların, fərqli mədəniyyətlərin olması da tamamilə ağlabatan görünür. Astrofizik qeyd edir ki, işığın sürəti saniyədə 300 min kilometrdir, digər hər hansı sürətin bu sürətə çatması mümkün deyil. Fizika elmi isə tam olmasa da, bu sürətə mümkün qədər yaxınlaşma ola biləcəyini istisna etmir. Lakin bu sürət kainatı, kosmosu tamamilə kəşf etməyə yetərli deyil. Hətta işıq sürətinin yüzdə on miqdarına sahib olsaq belə, fəzanı başdan ayağa dolaşmaq üçün milyonlarla il zaman lazım olacaq. Yadplanetlilər ildırım sürətinə malik ola bilər. İndiyədək bizim dünyamızı ziyarət etməmələrinin tək səbəbi isə bəlkə də bizim onları cəlb edəcək ağıla, dərrakəyə sahib olmamağımızdır. Astrofizikin fikrincə, dünyamız xaricindəki dünya super inkişaf mərhələsində, hazırda bizim sahib olduğumuz, yüksək zənn etdiyimiz texnologiyadan qat-qat yüksəyinə sahibdir bəlkə də. Astrofizik deyib ki, dünyamızdan kənardakı varlıqlarla ünsiyyət yarada bilməməyimizin bir səbəbi də onların bizə münasibətdə daha çox məşğul olması, işlərinin çoxluğudur. Bəlkə də müxtəlif varlıqlar, aləmlər arasında bir müharibə gedir. Bundan əvvəl "super-güclər arasında baş verən müharibələr"dən dəfələrlə danışılıb. Dünyamızdakı super-güclər kimi onlar da öz aralarında münaqişə vəziyyətində ola bilirlər, bu səbəbdən də bizimlə maraqlanmağa vaxtları yoxdur.

Astrofizik xatırladır ki, bundan əvvəl BBC tərəfindən yayımlanan First Contact: An Alien Encounter (İlk təmas: Bir Uzaylı ilə Qarşılaşmaq) adlı bəlgəsəldə insanlığın dünya xaricində fərqli bir həyat olmasına dair dəlillər tapılması halında nələrin baş verə biləcəyi əks olunub. Bəlgəsəldə baş verə biləcək hal üçün mümkün senari də düşünülüb. Baş verə biləcək qurması gözlənilməz hal zamanı Yer planetinin insanlarının yad planetlilərlə ünsiyyət qurması qarışqaların insanlarla danışa bilməsi ilə müqayisə edilib: "Bu durum qarışqaların insanlarla təmas yaratmasına çalışmasına çox bənzəyəcək".

**Məlahət Rzayeva**

## Pitbull yandırılaraq öldürüldü

Saxlanan şəxsə 6 ilə həbs cəzası kəsilib



**İzmirin Seferihisar səmtində "Şila" adlı Pitbull itini yandıraraq öldürməkdə şübhəli bilinən Ömər Faruk Baki (38) barəsində məhkəmədə iddia qaldırılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Furkan Pınar adlı şəxsə məxsus dişi Pitbull evdən 10 metr aralıda yaşıl sahədə taxta daxmasında yandırılıb. Alovu görən ətrafdakılar 112 Təcili Yardım Mərkəzinə məlumat veriblər. Bu arada bəzi insanlar mobil telefonlarının kameraları ilə bu anları görüntüləyiblər.

Hadisə yerinə gələn yanğınsöndürənlər alovu söndürüb. Qəfəsin qapısı bağlı olduğundan çölə çıxa bilməyən itin yanaraq öldüyü müəyyən edilib. Polis yanğını törədənlərin müəyyən edilərək tutulması üçün işə başlayıb. Şübhəlinin Ömər Faruk Baki olduğu müəyyən edilib.

İddianamədə Bakinin Furkan Pınara məxsus Pitbull itini qəsdən öldürdüyü, it evini də eyni qaydada yandıraraq zədələyərək yararsız hala saldığı bildirilib. Bakiyə "özgənin daşınan və ya daşınmaz əmlakını qismən və ya tamamilə məhv etmə, dağıtma, korlama, istifadəyə yararsız hala salma və ya çirkləndirmə" maddəsi ilə 4 aydan 3 ilə qədər həbs cəzası istənilib. Bakinin 6 ilə qədər həbslə mühakimə olunmasını tələb edən ittihamnamə Seferihisar 2-ci Asliye Cəza Məhkəməsi tərəfindən qəbul edilib.

**Turan**

## Yenə dönür?

"Simpsonlar" Trampla bağlı növbəti proqnoz verib



**"Simpsonlar" cizgi serialının prodüseri El Cin tviter hesabında ("Trampstatik səyahət") "Trumpstatic Journey" adlı qısa epizoddan paylaşdığı kadr müzakirələrə səbəb olub.**

Prodüser bununla ekran işinin yeni proqnozu olduğunu bildirib. Paylaşımda 2015-ci ildə uçan Homer Simpson (red. - animasiyanın əsas personajlarından biri) və "Tramp 2024" yazılan prezident seçki kampaniyası posterini əks etdirən bir kadr yer alıb.

Belə ki, Amerikanın keçmiş prezidenti Donald Trampın 2024-cü ildə yenidən bu vəzifəyə namizədliyini irəli sürəcəyi iddia olunub.

Bundan əvvəl Donald Tramp 2024-cü ildə üçüncü dəfə Respublikaçılar Partiyasından prezident seçkilərində iştirak edəcəyini təsdiqləyib.

"Amerikanı yenidən möhtəşəm və gözəl etmək üçün mən bu gecə ABŞ prezidentliyinə namizədliyimi irəli sürürəm" deyən Tramp 2024-cü ildə prezident Co Baydeni məğlub edəcəyinə söz verib.

O, sonda "Amerikanın qızıl dövrü hələ qabaqdadır" deyə, vurğulayıb.